YENİ MÜSAVAT
www.musavat.com
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3-4 iyun 2017-ci il Şənbə № 118 (6732) Qiymətì 60 qəpik

**Xəbər**

## Yol polisinin gizli formada patrul və əməliyyat xidməti aparması qadağan edildi

yazısı səh.2-də

**Gündəm**

### Daha bir müharibə xəbərdarlığı - düşmən kimə arxayındır?



Qarabağ danışıqlarına olan ümidlər sıfırlanır - kritik durum; amerikalı sabiq diplomata görə, sülh prosesini yalnız ABŞ və Rusiya prezidentləri xilas edə bilər

yazısı səh.11-də

### "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanuna dəyişiklik edilir

yazısı səh.2-də

### Deputatdan və keçmiş baş nazirdən ABŞ-Azərbaycan münasibətlərinə dair ilginc açıqlamalar

yazısı səh.9-da

### Əhalidə ən çox aşkarlanan xəstəlik - qan dövranı pozğunluğu...

yazısı səh.2-də

### Rusiya pomidor məsələsini siyasi təzyiq vasitəsinə çevirib

yazısı səh.12-də

### Gənc qızın ölümü ilə nəticələnən qəzanın şok detalları

yazısı səh.15-də

### Şantajçı "falçı" qadınları necə təhdid edib...

yazısı səh.14-də

### "Ətsiz kolbasa" açıqlaması aranı qatdı

yazısı səh.15-də

### Trampın Avropaya qəzəbinin pərdəarxası

yazısı səh.12-də

**Ramazan ayının 8-ci günü**

İftar 20.22. İmsaq 03.12-dək (QMİ)

8-ci günün duası: "İlahi, bu gün məni yetimlərə rəhm edən, Sənin yolunda yoxsullara yemək bəxşiş edənlərdən və salamı açıq-aydın şəkildə verənlərdən qərar ver! Məni Öz nemətinlə kəramətli və yaxşı insanlarla yoldaş et! Ey arzu edənlərin Sığınacaq və Pənahı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# PREZİDENT İLHAM ƏLİYEV KOMANDANI NECƏ DƏYİŞİR - DAHA ÜÇ İRİ FİQUR...

PA-dan başlamış islahatlar yaxın günlərdə Nazirlər Kabineti və BŞİH-də də elan olunacaq; qarşıdakı prezident seçkisi ilində daha çevik komanda ilə işləmək və islahatları tormozlayan qüvvələri hakimiyyətdən uzaqlaşdırmaq siyasəti davam edəcək...



yazısı səh.6-da

## Moskva və Ankaradan Bakıya müharibə zəmanəti - centlmen anlaşma?

Qərb Putini sıxışdırdıqca Türkiyə və Azərbaycanın Kreml üçün önəmi artır; ortaq əməkdaşlıq və "güc nümayişi" üçün ən uğurlu platforma isə Cənubi Qafqaz, Qarabağdır...

yazısı səh.8-də



Pənah Hüseyn

### Elçibəy iqtidarının baş nazirindən 4 iyun qiyamı haqda yeni açıqlamalar

yazısı səh.4-də



*Mehman Əliyev:*

### "Hökumətdə də dəyişikliklər olacaq"

yazısı səh.5-də



*Vüqar Bayramov:*

### "Prezidentin anonsunu verdiyi "Əsrlərin müqaviləsi" nəinki Azərbaycan, bütövlükdə region üçün strateji bir layihədir..."

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017



# Polisi öldürən "Porsche"nin sahibi ilə bağlı müəmma

## Kəbirə Məmmədova onun belə bir qardaşı oğlu olmadığını deyir

**Bibiheybət yolunda polisin ölümü ilə nəticələnən avtoqəzanın səbəbkarlarından biri olan "Porsche" markalı avtomobilin sürücüsü Rövşən Aydın oğlu Məmmədov mətbuatda məşhur iş adamı Kəbirə Məmmədovanın qardaşı oğlu kimi təqdim olunsa da, sahibkar bunu inkar edib.**

K. Məmmədova unikal.org saytına bildirib ki, onun belə bir qardaşı oğlu yoxdur:

"O ucarlı, mən bakılı. Mənim elə qardaşım oğlu yoxdur. Hazırda vəkillərim yanımdadır. Sözügedən xəbəri yazan saytları məhkəməyə vermək üçün hazırlıq görürük. Bu nə deməkdir, hər ötən hadisəyə görə mənim adım hallandırılır? Mənim bu məsələyə münasibətim bu qədər, sağ olun".

Hazırda R. Məmmədovla bağlı açılan istintaq işinin hansı yerdə olduğunu öyrənmək üçün Səbayel Rayon Polis idarəsi ilə əlaqə saxladıq. Polis idarəsindən bildirildi ki, faktla bağlı cinayət işi başlanılıb: "Faktla bağlı Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, istintaq davam etdirilir".

**Hüquqşünas Ələsgər Məmmədli "Yeni Müsavat"a bildirdi ki, bu kimi hadisələrdə bir günün içərisində istintaqın yekunu bəlli ola bilməz:** "Adam ölümü ilə nəticələnən iş olduğu üçün burada Cinayət Prosessual Məcəllə ilə istintaq gedir. Orada müəyyən müddətlər nəzərdə tutulur. Bu isə istintaqın verəcəyi bir qərardır. Yəni hansı müddətə iş yekunlaşarsa, o zaman da bağlayacaqlar. Bu, 24 saat, iki gün ərzində yekunlaşmır. CPM-də bununla bağlı olaraq konkret vaxtlar var. Əslində bu hadisədə son tarixə qədər də gözləməyə ehtiyac olmayacaq, çünki bir çox şeylər artıq bəllidir. Yəni qəzanın görüntüləri var, nəyin necə olduğu müəyyən qədər bilinir. Ancaq eyni zamanda burada bizim görmədiyimiz məqamlar da ola bilər. Məsələn, "Porshe" önündə və sağında olan maşını vurmamaq üçün də qarşı yola çıxa bilər. Bir qədər araşdırmağa ehtiyac var və dərhal kimisə günahlandırmaq asan məsələ deyil. Hər halda, polis maşınının oradan dönməsi də xəta idi. Tərəflər hansısa xəta etməsəydilər, bu qəza baş verməzdi. Ona görə də onların hər ikisinin hadisənin baş verməsində günahı əlli-əlliyədir. Hər iki tərəf ciddi şəkildə qüsurludur. Təbii ki, yekun nəticəni istintaq müəyyən edəcək. Yol hərəkətinin təhlükəsizliyi hər kəs üçün keçərlidir".

Qeyd edək ki, mayın 30-da saat 10 radələrində Səbayel rayonu Ə.Yaqubov küçəsində Bakı şəhər sakini Rövşən Məmmədov idarə etdiyi "Porsche" markalı avtomobili qarşıda yanacaqdoldurma məntəqəsinə dönmək istəyən Səbayel RPİ PPXB-nin əməkdaşı, polis kiçik serjantı Emil Zeynallının xidmət zamanı idarə etdiyi "Fiat-Doblo" markalı avtomobilə vurub. Nəticədə E.Zeynallı hadisə yerində ölüb, R.Məmmədov isə xəstəxanaya yerləşdirilib.

❑ Əli RAİS

# Bakı - Şamaxı yolunda sürüşmə aktivləşib

**Bakı - Şamaxı avtomobil yolunun 106-107-ci kilometrliklərindəki sürüşmə sahəsi aktivləşib. Bu barədə APA-ya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidməti Geoloji Planlama Ekspedisiyasının ekzogen geoloji proseslərin öyrənilməsi partiyasının rəisi Sadiq Əmiraslanov məlumat verib.**

O bildirib ki, atmosfer yağıntıları nəticəsində Şamaxının Birinci Çaylı kəndində yeni sürüşmə sahəsi əmələ gəlib.

S. Əmiraslanov qeyd edib ki, Şamaxının Ağsu çayının sağ sahilində yerləşən Keçmədin kəndində eni 20 - 22 metr, hündürlüyü 8

"Qaya Mətbuat Yayımı" MMC!
- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Yol polisinin gizli formada patrul və əməliyyat-xidməti aparması qadağan edildi

**Azərbaycanda Dövlət Yol Polisi (DYP) əməkdaşları tərəfindən nəqliyyat vasitələri ilə Yol-patrul xidməti (YPX) gizli və qarışıq formada patrul və əməliyyat-xidməti aparmaq qadağan edilib.**



APA-nın məlumatına görə, bu, Daxili İşlər Nazirliyinin Kollegiyası tərəfindən qəbul edilən və mayın 19-dan qüvvəyə minən yeni "Yol-patrul xidməti haqqında Təlimat"da əksini tapıb.

Yeni təlimata əsasən YPX inspektoru müəyyən olunmuş geyim formasında olmalı, üstündə xüsusi qrafikalı rəngli sxemlər, yazılar və tanınma nişanları olan, xüsusi işıq və səs siqnalları ilə təchiz edilmiş nəqliyyat vasitəsində xidmət aparmalıdır. Patrul avtomobili və YPX inspektoru yol hərəkəti iştirakçıları üçün kifayət edəcək məsafədən görünən olmalıdır. YPX avtomobillərinin görüntünü məhdudlaşdıran hər hansı maneələrin (ağaclar, bina və qurğular, reklam lövhələri və s.) arxasında, o cümlədən "Yol hərəkəti haqqında" Qanunu ilə dayanma, durma və parklanmanın qadağan edildiyi yerlərdə yerləşdirilməsi qadağandır.

Qeyd edək ki, Yol-patrul xidməti Dövlət Yol Polisi qurumlarının tərkib hissəsi olaraq, yol hərəkəti iştirakçılarının həyatının, sağlamlığının, əmlakının, onların hüquqlarının, yol hərəkəti sahəsində dövlətin və cəmiyyətin maraqlarının qorunmasını, yol hərəkəti təhlükəsizliyinin, nəqliyyat vasitələrinin fasiləsiz və təhlükəsiz hərəkətinin təmin olunmasını, bu sahədə inzibati xətaların aşkar olunmasını, profilaktikasını və qarşısının alınmasını, habelə qanunla polisin üzərinə düşən digər vəzifələrin icrasını həyata keçirir.



# Xəzərin hüquqi statusu haqqında Konvensiya layihəsinin bəzi müddəaları razılaşdırılıb

**İyunun 1-2-də Aşqabadda Xəzəryanı dövlətlərin xarici işlər nazirləri müavinləri səviyyəsində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyasının hazırlanması üzrə Xüsusi işçi qrupun 49-cu iclası keçirilib.**

XİN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, iclasda Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti, habelə İran, Qazaxıstan, Rusiya və Türkmənistan nümayəndə heyətləri iştirak edib.

Türkmənistan prezidenti yanında Xəzər dənizi məsələləri üzrə Dövlət müəssisəsinin sədri M. Atacanovun sədrliyi keçən iclasda Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov çıxış edib. Toplantıda tərəflər Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya layihəsinin razılaşdırılmamış müddəalarını müzakirə ediblər. Nəticədə Konvensiya layihəsinin bir sıra müddəaları razılaşdırılıb.

Nümayəndə heyətləri danışıqların nəticələrini yüksək qiymətləndiriblər və görüş yüksək səviyyədə təşkil edildiyi üçün Türkmənistan tərəfinə minnətdarlıq ifadə ediblər. Görüşdə növbəti iclasın İranda keçirilməsi qərara alınıb. İclasın tarixi diplomatik kanallar vasitəsilə müəyyən ediləcək.




# "BUTA AIRWAYS" aviaşirkətinin livreyası və loqotipi təsdiq olundu

**Azərbaycanın ilk aşağı büdcəli aviaşirkəti "BUTA AIRWAYS"in loqotipi, özünəməxsus korporativ üslubu və livreyası milli koloritin saxlanılması ilə tərtib olunub. "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətinin məlumatına görə, "BUTA AIRWAYS"in loqotipi Azərbaycanın buta ornamenti formasında təsvir olunan mifoloji müqəddəs Simurq quşu rəmzini özündə əks etdirir.**

Aviaşirkətin parlaq livreyasında buta naxışları "Azərbaycan Hava Yolları" QSC-nin ("BUTA AIRWAYS" AZAL QSC-nin struktur bölməsidir) korporativ göy rəngində, həmçinin Azərbaycan bayrağında əks olunan parlaq qırmızı rəngdə təsvir edilib.

"BUTA AIRWAYS"in donanması müasir "Embraer" təyyarələrindən ibarət olacaq.

Hazırda aviaşirkətin qiymət siyasəti, daşınma qaydaları, həmçinin marşrut şəbəkəsinin işlənib hazırlanması prosesi başa çatmaq üzrədir. Bu barədə yaxın zamanda ictimaiyyətə ətraflı məlumat təqdim ediləcək.

Bununla eyni vaxtda aviaşirkətin saytının işə salınması da gözlənilir. Sayt vasitəsilə aviabilet almaq mümkün olacaq. Eyni zamanda aviabiletləri kassalarda və rəsmi agentliklərdə əldə etmək mümkün olacaq.

# Mərkəzi Bankın valyuta ehtiyatlarının həcmi artıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi açıqlanıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, Mərkəzi Bankın valyuta ehtiyatları 2017-ci il iyun ayının 1-nə 4 mlrd. 825,4 mln. ABŞ dolları təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 541,1 mln. dollar və ya 12,63% çoxdur. May ayı ərzində isə Mərkəzi Bankın valyuta ehtiyatları 206,1 mln. dollar və ya 4,46% artıb.**

Cari ilin əvvəlindən artım 851 mln. dollar və ya 21,41% olub.

# Əhalidə ən çox aşkarlanan xəstəlik

**Bu ilin fevral ayının 15-dən may ayının 15-nə qədər ölkə üzrə 5 499 863 nəfər tibbi profilaktik müayinədən keçib.**

Səhiyyə Nazirliyindən "Report"a verilən məlumata görə, onlardan 2 640 119 nəfər kişi və 2 859 744 nəfər qadın olub.

Bakı şəhəri üzrə 1 308 329 nəfər tibbi profilaktik müayinələrdən keçib.

Respublika üzrə müayinədən keçən şəxslərdən 2 041 388 nəfər əlavə müayinələrə cəlb olunub, 68 427 nəfər dispanser nəzarətə alınıb, 27 059 nəfər hospitalizasiya olunub.

Müayinələr zamanı aşkar olunan ilkin xəstəliklər arasında üstünlüyü qan dövranı sistemi xəstəlikləri (17,2%), tənəffüs sistemi xəstəlikləri (16,8%), həzm sistemi xəstəlikləri (11,7%) təşkil edib.

# "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanuna dəyişiklik edilir

**Azərbaycanda "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanuna dəyişiklik təklif edilir.**

"Report"un xəbərinə görə, layihəyə əsasən "terrorçu" və "terror təşkilatı" anlayışları genişləndirilir.

Belə ki, "Terrorçu" dedikdə hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və icraçı qismində iştirak edən və ya bu cür aktları hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən fiziki şəxs başa düşülür.

"Terror təşkilatı" isə hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və icraçı qismində iştirak edən, terror aktlarını hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən terror şəxslərin qrupu və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün hesab edən təşkilatdır.

Dəyişiklik layihəsi Milli Məclisdə müzakirəyə çıxarılacaq.

YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017





# Bakı Atatürk Liseyi 25 illiyini qeyd etdi

## Məşhur liseydə məzun günü də baş tutdu



**İyunun 2-də Türk Dünyası Araşdırmalar Vəqfi Bakı Atatürk Liseyinin 25 illiyi, həmçinin məzun günü ilə əlaqədar tədbir keçirilib.**

Musavat.com xəbər verir ki, Azərbaycan Dövlət Dram Teatrında baş tutan tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, millət vəkili Qənirə Paşayeva, keçmiş millət vəkili Sabir Rüstəmxanlı, Azəri Türk Qadınlar Birliyinin başqanı Tənzilə Rüstəmxanlı, Türk Dünyası Araşdırmaları Vəqfinin başqanı Közhan Yazqan, lisey rəhbərliyi, Türk Dünyası Araşdırmalar Vəqfinin yaradıcısı Turan Yazqanın ailəsi, müəllimlər, məzun olan tələbələr və valideynlər iştirak ediblər.






**Tədbirdə ilk olaraq Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral çıxış edib:** “Bakı Atatürk Liseyi ilə biz hər zaman fəxr edirik. Liseyin yaranmasından 25 il keçir. Bu müddət ərzində lisey millətini sevən, savadlı, qabiliyyətli, üstün dünyagörüşlü gənclər yetişdirib. Məzun olan gənclərin həm Azərbaycan, həm də Türkiyə üçün faydalı olacaqlarına əminəm”.



**Deputat Qənirə Paşayeva da çıxışı zamanı gəncləri təbrik edib:** “Bir millətin gələcəyi onun gənclərindən asılıdır. Bu səbəbdən Türk Dünyası Araşdırmalar Vəqfi Bakı Atatürk Liseyinin üzərinə böyük məsuliyyət düşür. Əminəm ki, onlar bu məsuliyyəti anlayır və layiqincə yerinə yetirirlər. Mən inanıram ki, Atatürk liseyi daha da böyüyəcək. Lisey daha çox parlaq gənclər yetişdirəcək. Türk dünyasının böyüməsini istəməyənlər çoxdur. Bununla mübarizə aparmaq üçün biz bir olmalıyıq. Mən bir daha məzun gənclərimizi təbrik edirəm. Allah hər zaman yolunuzu açıq eləsin. Uğurlarınız hər iki dövlətin başını uca etsin”.



**Sabir Rüstəmxanlı isə Turan Yazqanla olan dostluğuna toxunub:** “Hamınızı bu gözəl gün münasibətilə təbrik edirəm. Bu lisey həm Atatürkün liseyidir, həm də Turan Yazqanın. Çünki o, hər zaman Atatürk idealları ilə uşaqları yetişdirirdi. Qoy bu gənclər hər zaman bilsinlər ki, onların milləti heç vaxt geri çəkilməyib və çəkilməyəcək. Biz Turan Yazqanla dost olmuşuq. O, heç kimə möhtac olmadan bu məktəbləri yaratdı. Bu burada onun övladları, həyat yoldaşı, dostları və sevənləri var. Bu liseyin yetişdirdiyi savadlı gənclərə görə bütün lisey müəllimlərinə təşəkkür edirəm. Arzu edirəm ki, bu liseyin 100 illiyi qeyd edilsin”.

Məktəbin açılmasının təşəbbüskarı olmuş Azərbaycanın eks-prezidenti Əbülfəz Elçibəyin köməkçisi Oqtay Qasımov tədbirdə valideynlər adından çıxış edərək, belə bir liseyin varlığının türk dünyası üçün önəmini vurğulayıb. Valideynlər adından TDAV-a təşəkkür edən Oqtay Qasımov məktəbin yetişdirdiyi tələbələrin türk dünyasına böyük xidmət verəcəyinə əmin olduğunu bildirib.

Tədbirin rəsmi hissəsindən sonra lisey məzunlarının ifasında bədii hissə başlayıb. Onlar mahnılar oxuyub, maraqlı çıxışlar ediblər. Onların hər çıxışı, çıxışları zamanı verdikləri mesajlar alqışla qarşılanıb.

❑ **Musavat.com**





# Qəzzafinin oğlu Liviyanın yeni ümidi olacaq?

## Liviya hakimiyyəti 5 ildən sonra Seyfülislam Qəzzafini azad edib



Seyfülislam Qəzzafi

**Devrilmiş Liviya lideri Müəmmar Qəzzafinin oğlu Seyfülislam Qəzzafi azadlığa buraxılıb. Bu barədə Fransa televiziyasına onun vəkili Kərim Xan məlumat verib. Vəkil bildirib ki, Tobrukda yerləşən Liviya hökumətinin elan etdiyi amnistiya çərçivəsində Seyfülislam Qəzzafi bu ilin aprelində azadlığa buraxılıb.**

Qeyd edək ki, Qəzzafinin varisi hesab olunan və etirazlara qarşı əsas müqaviməti təşkil edən Seyfülislam daha sonra ələ keçmiş və üsyançıları hədələdiyi sağ əlinin barmaqları kəsilmişdi. 2015-ci ildə Liviya məhkəməsi Seyfülislam barəsində edam qərarı vermişdi. Ancaq hazırda ölkədə davam edən müharibə, şərtlərin dəyişməsi, görünür, yeni Liviya hökumətinin qərarına təsir edib. S.Qəzzafi 2011-ci ilin payızında, atasının öldürülməsindən az sonra ələ keçmişdi. 5 il həbsdə qalan Seyfülislam etirazçılara qarşı kəskin güc tətbiqi, onları öldürmək, kənd və şəhərləri mühasirədə saxlamaq, ictimai əmlaka zərər vurmaqda günahlandırılaraq 2015-ci ildə edam cəzasına məhkum edilmişdi.

1969-cu ildən 2011-ci ilə qədər Liviyanı təkbaşına idarə edən polkovnik Müəmmar Qəzzafi “ərəb baharı” dalğasında başlayan üsyan və ardınca NATO-nun hava zərbələri sonrası devrilmiş, daha sonra qaçarkən ələ keçirilərək öldürülmüşdü. Onun 8 övladından biri olan Seyfülislam atasının gələcək varisi, diktatorun parlaq övladı hesab olunurdu. Bu səbəbdən də Liviyada başlayan etirazlara qarşı əsas mübarizə aparan da Seyfülislam idi.

1972-ci ildə anadan olmuş Seyfülislam İngiltərədə təhsil alıb, dünyanın ən nüfuzlu ali məktəblərindən biri olan London İqtisad Məktəbinin məzunu olub. Eyni zamanda Liviyada yeni islahatçı lider, Qərblə yaxınlaşmanın əsas memarı olaraq tanınan Seyfülislamın atasından sonra Liviyaya rəhbərlik edəcəyi gözlənilirdi. Ancaq 2011-ci ilin gəlməsi ilə hər şey dəyişdi. Ancaq bütün dünya Liviyaya qarşı olanda, NATO havadan və gəmilərdən Liviyanı bombalayanda ortada görünən Seyfülislam idi və Qərbə meydan oxuyurdu.

Maraqlıdır ki, Qəzzafinin öldürülməsində əsas səbəblərdən biri olaraq qeyd olunan amil həm də Seyfülislamın adı ilə bağlıdır. 2011-ci ildə etirazlar davam edən zaman Seyfülislam Qəzzafi “Euronews” telekanalına verdiyi müsahibədə 2007-ci il prezidenti seçkiləri zamanı atasının Fransanın o zamankı prezidenti Nikolya Sarkozinin seçki kampaniyasına böyük məbləğdə maliyyə yardımı etdiyini bildirmişdi. Bu açıqlama o zaman siyasi dairələrdə geniş rezonans doğurdu. Sitat: “Əvvəlcə Sarkozi seçki kampaniyasına verdiyimiz pulları bizə geri qaytarmalıdır. Onun seçki kampaniyasını biz maliyyələşdirdik. Bütün detallar əlimizdədir və açıqlamağa hazırıq. O təlxəkdən yeganə istəyimiz Liviya xalqının pullarını geri qaytarmasıdır”.

Bu açıqlama dünyada böyük rezonans doğurdu. Amma ardınca yayılan gizli məlumatlardan belə məlum oldu ki, Qərb ölkələri Liviyaya qarşı sanksiyalar tətbiq etsələr də, bu ölkə ilə gizli bazarlıqlarını davam etdiriblər. Britaniya, Almaniya, Fransa, İtaliya kimi aparıcı NATO ölkələrinin embarqo dönəmində Liviyaya silah satdığı haqda sənədlər üzə çıxdı. Bəzi iddialara görə, Qəzzafinin qaçarkən konvoyunun NATO qırıcıları tərəfindən vurulması, özünün isə yaralı şəkildə üsyançıların əlinə keçməsi və bu zaman iki Fransa xüsusi xidmət əməkdaşının da içərisində olduğu qrup tərəfindən linç edilərək öldürülməsi Qəzzafinin susdurulması planı idi.

Atasının öldürülməsindən bir ay sonra isə noyabrda Seyfülislam Liviyanın cənubunda tutuldu və Qərbi hədələdiyi sağ əlinin şəhadət və orta barmaqları kəsildi. Təhdidləri ona baha başa gəlmişdi.

İndi isə vəkilinin dediyinə görə, aprelin 12-də azad edilən Seyfülislam hazırda Liviya ərazisindədir, onun həyatına təhlükə yoxdur. Məsələ ondadır ki, indi Seyfülislam üçün ən təhlükəsiz yer elə Liviyadır. Çünki Qəzzafidən sonra dağılıb xaraba qalan Liviyada formal olaraq iki, qeyri-rəsmi və daha artıq hakimiyyət mövcuddur, ölkə tamamilə xaraba qalıb, yaxın zamanlarda nəinki sabitliyin əldə olunması gözlənilmir, əksinə, ölkənin iki və ya üç hissəyə bölünməsi ehtimalı var. Hazırda ölkənin şərqi və qərbində iki siyasi iqtidar mövcuddur. Dərnə şəhəri və ətrafı isə İŞİD-in nəzarətindədir. Qəzzafilərin güclü tayfaları var və müharibədən bezən, Qəzzafi dövrünü həsrətlə xatırlayan yüz minlərlə insanın yaşadığı Seyfülislam üçün ciddi təhlükə yoxdur. Əksinə, Qərbdə və ya gedəcəyi başqa ölkələrdə ondan qisas ala bilərlər. Bu səbəbdən də Seyfülislam hələlik Liviyadadır. Çünki mümkündür ki, onu azad edən hakimiyyət ölkədə birliyin əldə olunması və sülh bağlanması üçün oğul Qəzzafinin dəstəyindən istifadə etmək istəyir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017

**Dövlət başçısının sərəncamı ilə Prezident Administrasiyasında struktur dəyişikliyi - islahatlar həyata keçirildi. Sərəncama əsasən şöbə müdirləri və müşavirlər prezident köməkçisi təyin olundular.**

# "Son dəyişiklikləri ciddi islahat sayıram"

## Keçmiş prezident köməkçiləri danışdı; **Eldar Namazov:** "Bu addımın davamı olaraq Nazirlər Kabinetinin statusuna və yerinə yenidən baxılması zəruridir"

Prezident köməkçisinin səlahiyyətlərinə, vəzifələrinə nələr daxildir?

**1992-93-cü illərdə prezident olmuş Əbülfəz Elçibəyin köməkçisi vəzifəsini tutan Oqtay Qasımov "Yeni Müsavat"a bildirdi ki, o zaman Elçibəyin iki köməkçisi olub:** "Rəhmətlik Gülşad Zərbəliyev də mənimlə birgə işləyirdi. O, Ayaz Mütəllibovun vaxtından bu vəzifədə qalmışdı". Cəbhə iqtidarı zamanı köməkçilərin gördükləri işlər barədə O.Qasımov bunları bildirdi: "Köməkçi olaraq bizim səlahiyyətlər prezidentin qəbullarını təşkil etmək, mətbuatla əlaqələri mətbuat xidməti ilə təmin etmək, poçtuna daxil olan məktubları ümumi şöbə ilə çeşidləyib prezidentə təqdim etmək və icrasına nəzarət, məxfi sənədlərlə iş, Müdafiə Komitəsinin - indiki Təhlükəsizlik Şurasının - iclaslarında stenoqramı yazıb protokolların tərtib edilməsi, telefon əlaqələrinin yaradılması, prezidentin adından göstərişlərin verilməsi və s. idi".

**Azərbaycana 1993-2003-cü illərdə rəhbərlik etmiş keçmiş prezident Heydər Əliyevin köməkçisi vəzifəsini daşımış Eldar Namazov isə əməkdaşımızla söhbətində dedi ki, o zamankı durumla bugünkü vəziyyəti müqayisə etmək düzgün deyil:** "Hər dövrün öz xüsusiyyətləri var, şərait də tamamilə fərqlidir. Heydər Əliyev 1993-cü ildə öz komandasını formalaşdıranda bir köməkçi ilə işləməyə üstünlük verirdi. O dövrdə mən Heydər Əliyevin demək olar ki, bütün sahələr üzrə görüşlərində, müzakirələrində iştirak edirdim, iqtisadiyyatdan tutmuş, xarici, daxili siyasətə, hərb məsələlərinə qədər. Bir əhvalat yadımdadır: Heydər Əliyev bir-iki dəfə məndən soruşmuşdu ki, sən bu məsələləri nə cür çatdırırsan? Mən səmimi deyirdim ki, bu cür məsələləri çatdırmaq mümkün deyil, əslinə qalsa, prezidentin hər sahələr üzrə köməkçilər qrupu olmalıdır. Müxtəlif səbəblərdən Heydər Əliyev o dövrdə bu addımı atmırdı, mənim dövrümdə yalnız bir dəfə hərb məsələləri ilə bağlı köməkçi təyin olunmuşdu - Tofiq Ağahüseynov. Mən onda çox sevincək oldum, həmin gün Müdafiə Nazirliyindən gələn bir sıra məxfi sənədləri bir köməkçi kimi ona ötürdüm və xahiş etdim ki, bu məktubları araşdırandan sonra prezidentə məruzə eləsin. Ancaq iki gündən qəflətən prezident buna görə məni bir az danladı, dedi, Səfər Əbiyevin göndərdiyi məktubları niyə məruzə etmirsən? Dedim, artıq hərb məsələləri üzrə köməkçiniz təyin olunduğu üçün məktubları ona verdim ki, məruzə etsin. Lakin prezident dedi sən nahaq sevinirsən ki, mən köməkçi təyin etmişəm, bu, sənin yükünü azaltmır, məktubları geri götür, bu işlə məşğul olmağa sən davam edəcəksən. Yəni o dövrdə tamam başqa şərait idi. Hesab edirəm ki, böyük köməkçilər qrupunun olması daha effektli bir mexanizmdir".


Eldar Namazov


Oqtay Qasımov

**E.Namazov Prezident Administrasiyasında aparılan islahatların məğzi barədə bunları söylədi:** "Fərdlərdə o qədər də böyük dəyişikliklər olmadı. Bir sıra insanlar yeni strukturda yer almadılar, həmçinin Fatma xanım, Məhərrəm Əliyev və digərləri. Ancaq bütün bu addımlara fərdlərin taleyi baxımından baxmaq düzgün deyil, əsas struktur dəyişikliyi, səlahiyyət bölgüsüdür. Bu mənada mən bunu ciddi islahat sayıram. Müxtəlif sahələrə cavabdeh olan şöbə müdirləri artıq birbaşa prezidentin köməkçiləri statusunu qazandılar. Bu, o deməkdir ki, artıq həmin sahədə çalışan adamlar birbaşa prezidentə məruzə etmək, prezidentlə daimi təmasda olmaq, ondan tapşırıqlar alıb yerinə yetirmək statusuna malik olurlar. Daha da konkretləşdirsək, tutaq ki, əvvəllər onlar Prezident Administrasiyasının rəhbəri vasitəsilə bu işi görürdülər, indi isə birbaşa prezidentlə ünsiyyət nəticəsində bu işləri icra edəcəklər. Təsadüfi deyil ki, artıq Prezident Administrasiyasının rəhbərinin müavini statusu ləğv olundu və həmin şöbə müdirləri birbaşa prezidentin köməkçiləri kimi fəaliyyət göstərəcəklər". **E.Namazov bunu tamamilə düzgün addım saydığını vurğuladı:** "Bir anlıq məsələyə başqa tərəfdən baxaq: deyək ki, hər hansı sahəyə rəhbərlik edən nazirlik, yaxud dövlət agentliyi, komitəsi var. Bunlar prezidentlə ünsiyyəti çox vaxt aparat vasitəsilə qurur. Aparatda isə bu sahəyə nəzarət edən şöbə var. Eyni zamanda Azərbaycanda Nazirlər Kabineti, bu qurumun öz şöbələri də var. İndi təsəvvür edin, bir sahəyə rəhbərlik edən adam həm baş nazirlə məsləhətləşməlidir, həm Nazirlər Kabinetindəki müəyyən şöbələrlə, həm Prezident Administrasiyasının rəhbəri ilə əlaqə qurmalıdır. Prezidentin tapşırıqlarını yerinə yetirən adamın görün neçə sahə üzrə əlavə inzibati öhdəlikləri meydana gəlir. ABŞ boyda ölkədə baş nazir yoxdur. Orada Prezident Administrasiyasının rəhbəri sahələr üzrə işləyən köməkçilərin işinə müdaxilə etmir. O, administrasiyanın işlərinin qurulmasında müəyyən bir rol oynayır, ancaq sahələr üzrə hansısa bir nazirlə prezident arasındakı ünsiyyəti yalnız bu sahəyə cavabdeh olan köməkçilər qura və müəyyən işləri həyata keçirə bilər. Bu baxımdan, hesab edirəm ki, effektivliyi artırmaq baxımından bu, irəliyə atılmış bir addımdır".

**Bununla yanaşı, E.Namazov müasir Azərbaycanda Nazirlər Kabinetinin rolunu görmür:** "Bu, mənim nəzərimdə əlavə bir strukturdur. Prezident Administrasiyasında artıq müəyyən islahatlar aparılır və daha effektiv sistem qurulur. Prezidentin hər sahə üzrə köməkçisi, həmin sahələrə rəhbərlik edən nazirlər var və bu şaquli rabitə daha effektlidir. Ancaq Nazirlər Kabineti məsələsi yeri hələ ki görünməyən bir əlavə kimi qalır".

**E.Namazov şübhə etmir ki, bu, ölkədə yeni mərhələnin başlanması deməkdir:** "Bu, yalnız kimisə vəzifəsindən azad etmək, yaxud kiminsə vəzifəsindən getməsi anlamına gəlmir. Struktur dəyişikliyi ilə bağlı qərarda işin təşkili baxımından kifayət qədər yeniliklər var və mən bu barədə fikirlərimi bildirdim. Mənə elə gəlir ki, bu addımın davamı olaraq Nazirlər Kabinetinin statusuna və yerinə yenidən baxılması zəruridir. Azərbaycanda bu iki struktur bir-birini təkrarlayır, ona görə də hələ məsələ öz həllini tapmayıb. Ancaq Prezident Administrasiyasının daxilində aparılan islahatlar düzgün istiqamətdə atılan addımdır. Yeganə olaraq, məncə, hərb məsələləri ilə bağlı şöbə və prezident köməkçisi müstəqil olmalı idi".

**Oqtay Qasımov:** "Hər dövrün öz xüsusiyyətləri var, şərait də tamamilə fərqlidir"

❑ **E.PAŞASOY**

# "Prezident komandasının borcu idi ki..."

## Elçibəy iqtidarının baş nazirindən 4 iyun qiyamı haqda yeni açıqlamalar



**Sabah Əbülfəz Elçibəy hakimiyyətinin devrilməsi ilə nəticələnən 4 iyun qiyamının 24-cü ildönümüdür. Surət Hüseynovun başçılığı ilə 1993-cü ilin 4 iyununda hakimiyyətə qarşı başlanan hərbi qiyam qısa müddətdə Əbülfəz Elçibəy hakimiyyətinin iş başından götürülməsi ilə nəticələndi.**

4 iyun qiyamını doğuran səbəblər barədə indiyə qədər çoxsaylı fikirlər ifadə olunub. Bəziləri Azərbaycanın taleyini dəyişən bu hadisəni Elçibəy hakimiyyətinin səhvlərinin nəticəsi, bir çoxları isə həmin hakimiyyətin uğurlarının davam edəcəyindən narahatlıq keçirən xarici güclərin həyata keçirdiyi plan adlandırır.

**Bu barədə Elçibəy hakimiyyətinin baş naziri Pənah Hüseyn** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, qeyd olunan hər iki məqam 4 iyun qiyamının səbəblərindən idi. Bir tərəfdən Elçibəyin Azərbaycanın müstəqilliyi, ölkənin inkişafı ilə əlaqədar irəli sürdüyü strategiya Rusiya və İranda ciddi qüvvələri Elçibəy hakimiyyəti əleyhinə hərəkətə gətirmişdi. Onun devrilməsi üçün xarici mərkəzlər çox ciddi iş aparırdı. Elçibəy siyasətinin dayandırılması və bunun ətrafa təsirinin zərərsizləşdirilməsi üçün plan qurulmuşdu: "Azərbaycanın istər təbii sərvətlərinin, istər geosiyasi mövqeyinin həmin dövlətlərin maraqlarına cavab verən məcraya yönəlməsini istəyən qüvvələr çox ciddi fəaliyyət göstərirdi. Elçibəy siyasətinin ölkənin maraq və mənafelərinə cavab verməsi Azərbaycanı istəməyən gücləri hərəkətə gətirmişdi. Həmin güclər Azərbaycanın daxilindəki əlaltılarının, xainlərin əli ilə hərbi qiyam hazırladılar və həyata keçirdilər. Fakt odur ki, xalq tərəfindən seçilmiş Elçibəy hakimiyyətinə qarşı daxildəki bir çox siyasi qüvvələr-bu qüvvələrin bir hissəsi vəzifədən ötrü hər cür cinayətə hazır olan insanlar idilər, bir hissəsi xaricdən idarə olunmaqla birləşmişdilər-Azərbaycanın müstəqil dövlət olaraq inkişafını istəməyən xarici dairələrin, müəyyən strukturların birbaşa iştirakı ilə qiyamı hazırladılar və həyata keçirdilər. 1993-cü ilin iyununda Azərbaycanda qanuni hakimiyyəti zorla, silah gücünə devirdilər. Gəncədə Surət Hüseynovun hərbi hissədə başladığı qiyam Bakıda Milli Məclisdə və digər siyasi aksiyalarda davam etdirilib başa çatdırıldı. Bu, silahlı qiyam vasitəsilə həyata keçirilmiş dövlət çevrilişi idi. Bu, indi əslində heç kim tərəfindən inkar olunmur. Elçibəy iqtidarının dövlət çevrilişi nəticəsində devrildiyi barədə hətta mövcud iqtidar rəhbərliyinin də nitq və müsahibələrindən çoxsaylı sitatlar gətirmək olar".

**P.Hüseyn onu da qeyd etdi ki, qiyamın inkişaf edib hakimiyyətin, dövlətin əsaslarını təhdid etmə səviyyəsinə gəlib çatmasına imkan verilməsi səhv idi:** "İstər ölkə daxilindəki qiyamçıların zərərsizləşdirilməsi istiqamətində daha ciddi addımlar atılmalı idi, istər ölkədə müəyyən islahatların, dəyişikliklərin daha sürətli aparılması istiqamətində işlər görülə bilərdi. Müəyyən addımları isə sonrakı mərhələlərə saxlamaq olardı. Ölkədəki vəziyyətin siyasi böhran həddinə və konkret hərbi qiyam həddinə gəlib çatmasının qarşısını almaq olardı. Hərbi qiyam və siyasi böhran meydana gəlmişdisə, görünür ki, bunların olmaması üçün kompleks addımlar atılmamışdı. Qiyam başlandıqdan sonra da subyektiv amillərin müəyyən rolu oldu. Hesab edirəm ki, burada məsuliyyət baxımından prezidenti kənara qoymaq lazımdır. Çünki prezident öz komandasına bütün səlahiyyətləri vermişdi və bu komandanın borcu idi ki, qiyamı neytrallaşdırmaq üçün daha təsirli, cəsarətli addımlar atsınlar, dövlətin bütün gücündən qanun çərçivəsində istifadə etsinlər. Hesab edirəm ki, heç də bütün vasitələr, imkanlar qiyamçılara qarşı mübarizədə istifadə olunmadı. O baxımdan da konkret siyasi məsuliyyət daşıyan vəzifəli şəxslər var. Birinci olaraq mən həmişə o cümlədən özümün məsuliyyətimi qeyd edirəm. Bu, hansısa konyuktura xatirinə deyil".

**P.Hüseynin fikrincə, Elçibəy hakimiyyəti bircə il də duruş gətirə bilsəydi, onu devirmək mümkün olmayacaqdı və Azərbaycan tamamilə fərqli, modern inkişaf yoluna qədəm qoyacaqdı:** "Qiyamın qarşısı alınsaydı Elçibəy hakimiyyətinin başlatdığı uğurlar 1993-cü ilin payızında kifayət qədər bitkin bir şəkil alacaqdı. Qarabağ məsələsində ciddi irəliləyiş gözlənilirdi. 1993-cü ilin yazında Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurasının qətnaməsi qəbul edildi və bu qətnamə hüquqi baza yaratdı. Aparılan beynəlxalq danışıqların bilavasitə iştirakçısı olaraq deyirəm ki, iyun ayında Kəlbəcərdən başlayaraq, Ermənistan silahlı qüvvələri işğal etdikləri ərazilərdən çıxmalı idilər. Yəni 1993-cü ilin payızınadək Qarabağ məsələsinin həll edilməsi planı mövcud idi. Parlament seçkiləri haqqında layihə göndərilmişdi və siyasi rəhbərliyin ümumi fikri belə idi ki, payızda parlament seçkiləri keçirilməlidir. Neft kontraktları hazırlanmışdı. Yayın sonu, payızın əvvəlində neft müqaviləsinin imzalanması gözlənilirdi. Özəlləşdirilmə haqqında dövlət proqramı hazır idi. Avropa Yenidənqurma və İnkişaf Bankının 1993-cü il yaz hesabatında qeyd edilirdi ki, postsovet ölkələrində ən uğurlu islahatlar Azərbaycanda aparılır. Bu dörd hadisə reallaşandan sonra Azərbaycanda hər hansı qiyam, çevriliş etmək, Azərbaycana kənardan təzyiq göstərmək, müharibə yolu ilə şantaj etmək minimuma enəcəkdi. Bütün bunları istəməyən xarici və daxili qüvvələr bir araya gələrək hakimiyyəti devirmək üçün bütün səylərini birləşdirdilər və hakimiyyəti devirdilər".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017

# "Prezident qarşıdakı dövrdə yeni mərhələyə keçidi bəyan etdi"

**Ölkə prezidenti İlham Əliyevin iyunun 1-də Prezident Administrasiyasının strukturunda dəyişiklik edilməsi barədə bir sıra mühüm sərəncamlar imzalaması ölkə gündəminin baş mövzusuna çevrilib, Prezident həmçinin özünə yeni köməkçilər təyin edib. Paralel olaraq Birinci vitse-prezident Mehriban Əliyevanın Katibliyinin rəisi vəzifəsinə təyinat olub.**

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov "Yeni Müsavat"a açıqlaması zamanı deyib ki, struktur dəyişikliyi administrasiyanın fəaliyyətində dinamikliyin, çevikliyin və optimallığın təmin edilməsi məqsədi daşıyır. Bir sıra müşahidəçilər prezidentin son sərəncamını institusional islahatlar istiqamətində atılan mühüm addım kimi dəyərləndirir, eyni zamanda məsələyə 2018-ci il prezident seçkilərinə hazırlığın tərkib hissəsi kimi yanaşanlar da var.

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc** "Yeni Müsavat"a bildirdi ki, 2018-ci ilin prezident seçkiləri qabağı daxildə və xarici aləmdə geniş diskussiyalar aparılarkən ölkənin siyasi gündəmi kadr dəyişiklikləri ilə tutuldu və media məkanında, ekspert caməesində müxtəlif xarakterli təhlillərin aparılması tamamilə başadüşüləndir: "Lakin unutmaq olmaz ki, Ermənistan və Gürcüstandan fərqli olaraq, ölkəmizdə sabit bir idarəçilik formalaşıb. Üstəlik, resurs dövlətləri üzərində təcrübələr hazırkı dünyamızda çox böyük vətəndaş toqquşmalarına və hətta ərazi itkilərinə səbəb olub. Neft-qaz zənginliyinə malik olan ölkələrə xarici müdaxilələrin fəsadlarını ən azı yüz illik tarix boyunca görmüşük. Ona görə də müstəqilliyimizi 25 ilə çatdırmış bir idarəetmə sistemini dəyişmək lazım deyil. Baxın, Ukraynanın Maydan inqilabının rəngindən indi əsər-əlamət qalmayıb, əksinə, ölkə suverenliyini itirmək təhlükəsi qarşısındadır. Ona görə prezident İlham Əliyevin 2017-ci ildə məhz yaxın komandası üzərindən dünyaya mesaj verməsi islahatların fəlsəfəsini və mahiyyətini anlamaq istəyənlərin hamısına yetərli informasiya verir. Bildiyiniz kimi, referendum vasitəsilə Azərbaycan Respublikası Konstitusiyasında aparılmış dəyişikliklər zamanı "Prezident Aparatı" ifadəsi "Prezident Administrasiyası" ifadəsi ilə əvəz edilmişdi. Bu da özlüyündə mühüm məna daşıyırdı. Dünya praktikasında da administrasiya daha geniş səlahiyyətləri hədəfləyən, bütün siyasi, iqtisadi proseslərin önündə gedən bir strukturu özündə ehtiva edir. Bu, müxtəlif ölkələrdə departamentlər sistemi, səlahiyyətləri dəqiq müəyyənləşdirilmiş idarəetmə modeli deməkdir".

**Z.Orucun fikrincə, bu dəyişiklik həm də Nazirlər Kabinetinin fəaliyyətinin dəqiq çərçivəsini müəyyənləşdirir və hakimiyyət qolları arasında harmonikliyi təmin edir, koordinasiyaya şərait yaradır:** "Prezidentli ölkələrdə ali icra hakimiyyətinin səlahiyyətləri daha üstün bir şəkildə təsbit olunur. Yəni birinci şəxsin komandasının digər institutlar üzərində üstünlüyü qəbul edilmәlidir. Parlamentli idarəçilikdəki çəkindirmə və balans funksiyasına burada ehtiyac qalmır. Göründüyü kimi, administrasiyada qeyd olunan təyinatlar baş verdi. Dərin idarəetmə və güclü ideoloji iş təcrübəsinə malik olan Ramiz Mehdiyev başda olmaqla, digər şəxslərin səlahiyyətlərinin geniş bir istiqamətdə təsdiq olunması o mənaya gəlir ki, prezident qarşıdakı dövrdə yeni mərhələyə keçidi bəyan edir. Bu, fərqli bir dönəm deməkdir. Azərbaycan buna qədərki dövrdə əldə olunmuş uğurlarla məhdudlanmır. Daha ambisiyalı proqramları qarşısına qoyur və prezidentin ən yaxın komandası olaraq administrasiya bu proseslərdə önəmli rol oynayacaq. Siyasi ağırlıq mərkəzi dəqiq müəyyənliyə malik olanda heç bir funksional qarşılığa və ya səlahiyyətlərin toqquşmasına yer qalmır. Doğrudur, kimlərsə vəzifəsinə təyinat almadı, lakin səbəblər haqqında mülahizə yürütmək istəyənlərin dəqiq məlumatlara malik olmadan xəyal qurmaları doğru deyil. Çünki dövlət başçısı siyasi kursunu gerçəkləşdirən zaman onu xarakterizə edən iki ali xüsusiyyəti hər zaman rəhbər tutub-ədalətlilik və müdriklik. Ona görə də əgər ölkə başçısı belə qərar veribsə, deməli, dərin təhlillərdən çıxış edərək addım atıb. Hər kəs etimad limitini öz fəaliyyəti, təşəbbüskarlığı, liderin adını uca tutması və digər təsirlərə uymaması ilə qazanır və qoruyub saxlayır. Bu, hər kəs üçün bir siqnaldır ki, siyasi və icra hakimiyyəti sistemində aparılan mühüm dəyişikliklər eyni zamanda digər strukturlarda da aparılacaq".

**Vitse-prezidentlik institutu və ona müxalif yanaşmalara kəskin etirazını söyləyən deputat qeyd etdi ki, bu institut dövlət başçısının komandasının ayrılmaz hissəsidir və dövlətin gücünü artıran bir hadisədir:** "Bu da təbiidir, çünki Mehriban Əliyevanın liderlik keyfiyyətləri, çevikliyi, istedadı və humanizmi dövlət idarəçilik sistemini daha da monolit edir. Ayrı-ayrı qüvvələr tərəfindən paralelçilik, iki mərkəzçilik haqqında təhlillərin əsassız olduğu bir daha sübuta yetirildi. Komanda vahiddir və hamının üzərində bir liderin iradəsi hakimdir. Ayrı-ayrı avtonom istəklər və siyasətlər haqqında gümanlar, yaxud mövqe savaşları haqda iddialar sosial gücü sarsılmış dairələrin hakimiyyət perspektivini bağladıqları qeyri-real fərziyyələrdir".

**Z.Oruc hesab edir ki, 2017-ci ilin fərqli reallıqları var:** "Cəmiyyət qarşısında çox mühüm vəzifələr var, iqtisadiyyatda mühüm dəyişikliklər aparılmaqdadır. Dövlət başçısı nəinki kimisə vəzifədən çıxarıb, eyni zamanda onlarla bağlı daha sərt qərarlar verib. Bir sıra nazir və nazirliklər çevrəsində aparılan məhkəmə prosesləri də buna sübutdur. Bununla dövlət başçısı cəmiyyətə mesajlar verir ki, o, öz komandasını hansı prinsiplərlə formalaşdırır. Zənn edirəm ki, sabitlikdən, mövcud olan təhlükəsizlik şəraitindən irəli gələrək Azərbaycanın bank sektorunda, iqtisadi sferada aparıcı məsələləri həyata keçirmək üçün daha çevik qurumlara, şəxslərə ehtiyacı var. Bunlar ötən dövr ərzində formalaşıb və prezidentin komandasının özəyini təşkil edir. Biz qarşıdakı dönəmdə siyasi, iqtisadi islahatların davamlılığını və onun gerçək nəticələrini görəcəyik. 2016-cı ildə bəlli səbəblərdən yaşanan tendensiyalar bir daha təkrarlanmayacaq".

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev** isə məsələyə aşağıdakı kimi yanaşır: "Əslində struktur dəyişiklikləri hələ islahat deyil, islahatın müəyyən hissəsidir. Burada insan faktorunun işə salınması, müəyyən dərəcədə optimallaşdırılması hələ islahat deyil. İslahat o vaxt olur ki, real proqramlar həyata keçirilməyə başlayır, onun əsasında hər hansı bir sahədə hansısa dəyişikliklər baş verir. Keçən ilin payızında 12 yol xəritəsi hazırlanmışdı, nə qədər keyfiyyətli, ya keyfiyyətsiz olması başqa söhbətin mövzusudur. Amma onların işə salınması prosesi hələ ki yoxdur. Nəyə görə yol xəritəsinə diqqət çəkirəm? Çünki birinci vitse-prezidentə sosial və iqtisadi istiqamətlər həvalə olunub. Gözləmək lazımdır, ardınca da hökumətdə dəyişikliklər olacaq".

**M.Əliyevin hesablamalarına görə, bu proseslər real olaraq payızda başlaya bilər:** "Əslində mən düşünürəm ki, bu, prezident seçkilərinə hazırlıqdır. O zaman seçkilərə təxminən bir ilə yaxın vaxt qalacaq. Yəni iqtisadi islahatların aparılması, həmin o yol xəritələrinin işə salınması və s. Burada əsas məqsəd seçicilərin rəğbətini qazanmaqdır. Həmçinin maksimal dərəcədə seçkiləri hay-küysüz, problemsiz, fövqəladə bir durumsuz keçirmək məqsədi daşıyır. Burada da çalışacaqlar ki, həmin seçici özü təzyiqsiz, güc tətbiqi olmadan, sərbəst qaydada öz seçimini etsin. Ona görə də islahatların aparılması zəruridir. Əslində bu gün Azərbaycanda hamını narahat edən əsas problem sosial-iqtisadi vəziyyətdir. Əgər bu istiqamətdə addımlar atılmağa və nə isə dəyişməyə başlasa, onda əlbəttə ki, daha çox seçici səs verməyə maraqlı olacaq".





**Zahid Oruc:** "Bu, hər kəs üçün bir siqnaldır ki, siyasi və icra hakimiyyəti sistemində aparılan mühüm dəyişikliklər eyni zamanda digər strukturlarda da aparılacaq"
**Mehman Əliyev:** "Gözləmək lazımdır, ardınca da hökumətdə dəyişikliklər olacaq"

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı isə 1nyus.az-a deyib ki, dövlət başçısının siyasi iradəsi ilə aparılan bu islahatların əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir:** "Prezident Administrasiyasının strukturunda aparılan islahatlar da prezident İlham Əliyevə daha effektiv və çevik xidmət etməyə imkan verən idarəetmə aparatının formalaşdırılmasına yönəlib. Edilən dəyişikliklərlə Prezident Administrasiyasında mövcud olan müxtəlif vəzifə təsnifatlarının azaldılması və eyniləşdirilməsi, əlaqəli sahələr üzrə vahid vəzifə təsnifatının müəyyənləşdirilməsi və bununla effektiv koordinasiyanın təmin edilməsi, administrasiyada daha geniş spektrli prezident köməkçiləri strukturunun formalaşdırılması, dövrün tələblərinə adekvat yeni şöbələrin yaradılması və ya mövcud şöbələrin funksiyalarının təkmilləşdirilməsi təmin edilib".

**Onun sözlərinə görə, prezidentin iqtisadi islahatlar üzrə köməkçisi xidmətinin funksiyalarına iqtisadi siyasət və sənaye məsələlərinin də əlavə edilməsi iqtisadi islahatların əhatə dairəsinin genişlənməsinə və Strateji Yol Xəritəsinin icrası üçün daha əlverişli şəraitin formalaşmasına zəmin yaradır:** "Mövcud dəyişikliklər həmçinin iqtisadi siyasətlə iqtisadi islahatların daha səmərəli sinerjisinin təmin olunmasına, iqtisadi islahatların bütün iqtisadi siyasət arsenalını əhatə etməsinə və formalaşdırılan vahid iqtisadi siyasət çərçivəsi daxilində daha effektiv iqtisadi islahatların aparılmasına gətirib çıxaracaq".

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017

# Prezident İlham Əliyev komandanı necə dəyişir - daha üç iri fiqur...

## PA-dan başlamış islahatlar yaxın günlərdə Nazirlər Kabineti və BŞİH-də də elan olunacaq; qarşıdakı prezident seçkisi ilində daha çevik komanda ilə işləmək və islahatları tormozlayan qüvvələri hakimiyyətdən uzaqlaşdırmaq siyasəti davam edəcək...

**Prezident İlham Əliyevin Prezident Administrasiyası strukturunda dəyişiklik etməsi ölkə mediasının gündəminə çevrilib. "Yeni Müsavat" hələ ötən həftə İslamiada yekunlaşdıqdan sonra idarəetmədə struktur islahatlarının başlayacağını xəbər vermişdi. (http://musavat.com/news/nazir-muavinleri-ixtisara-dusur-siyahi_441001.html) Yazıda bildirilirdi ki, hakimiyyət böyük bir məmur ordusu ilə yollarını ayırmağa hazırlaşır. Qeyd olunurdu ki, dəyişiklik "yuxarıdan" başlayaraq bütün idarəetməni əhatə edəcək və daha operativ bir komanda formalaşdırılmasına başlanılacaq.**

Struktur islahatlarına məhz Prezident Administrasiyasından (PA) başlanılmasının əlbəttə ki, xüsusi səbəbi var. Əvvəla, bu, idarəetmənin "ürəyi" hesab olunan Prezident Administrasiyasında struktur və kadr ixtisarları aparmadan digər administrativ qurumlarda islahatların effektli olmayacağına verilmiş mesajdır. Çünki Azərbaycan müstəqillik əldə etdikdən üzü bəri bu və digər səbəblərdən PA-da ciddi struktur islahatları aparılmayıb. Təsadüfi deyil ki, PA-da hələ də elə şöbə rəhbərləri varmış ki, onlar bütün prezidentlərin dövründə iş başında qalıb. PA idarəetmədə elə bir mexanizmdir ki, onun indi 10 il əvvəlkindən fərqli olaraq daha effektli quruma çevrilməsinə ehtiyac var.

Struktur islahatlarının PA-dan başlamasının daha bir incə səbəbi də var. Bu, incə nüans digər dövlət strukturlarında gözlənilən ixtisar və islahatlara "dodaq büzəcək", "niyə özlərindən başlamadılar" deyə biləcək məmurlara yönəlib. Prezident İlham Əliyevin öz administrasiyasında, belə deyək, özünə ən yaxın idarəetmə strukturunda kadr ixtisarları aparması "toxunulmaz məmur yoxdur" sözlərinin daha bir sübutudur.

Sərəncamdan belə qənaət yaranır ki, PA-da başlamış struktur islahatlarının miqyası əslində çox böyükdür. Müşavirlik institutunun birdəfəlik ləğv edilməsi, bəzi şöbələrin bağlanması və birləşdirilməsi prosesi hələ indi başlayır. Prezident sərəncamında kiminsə konkret işdən çıxarılması barədə bənd yoxdur, amma tanınmış bir sıra məmurların artıq administrasiyadakı işləri ilə vidalaşacağı dəqiqləşib. Onların sırasında yaşlılar da var ki, bu da göstərdikləri effektli dövlət xidmətinə baxmayaraq, prezidentin komandanı gənc kadrlarla əvəzləmə iradəsini göstərir.

Son aylar həm nazirliklərdə, həm birinci vitse-prezident aparatının formalaşmasında gənc kadr təyinatlarına üstünlük verilməsi bu tendensiyanın davamlı olacağını deməyə əsas var. Gənc nazir Ramin Quluzadəyə rabitə ilə bərabər nəqliyyat sahəsinin də həvalə olunması siyasi komandada cavanlaşdırma strategiyasının yürüdüldüyünü təsdiqləyir və göründüyü kimi, davam da edir.

Prezident icra aparatını effektli struktura çevirməklə qarşıdan gələn prezident seçkilərinə hazırlığın başlandığına işarə də verə bilər. Məlumdur ki, prezident seçkilərində əsas yük PA üzərinə düşür. Administrasiyada yenilənmə, daha effektiv idarəetmə mexanizmlərinin qurulması başlayır ki, bu da yaxın aylarda tam yekunlaşacaq.

Bu həm də o deməkdir ki, prezident İlham Əliyev gələn il keçiriləcək prezident seçkisinə effektli, daha rasional və işlək komanda ilə getməyi hədəfləyib. Administrasiyadan başlamış islahatlar yaxın günlərdə iki mühüm strukturda da elan olunacaq. Bu, Nazirlər Kabineti (NK) və Bakı Şəhər İcra Hakimiyyətidir (BŞİH).



"Yeni Müsavat"a daxil olan xəbərdə deyilir ki, NK-də baş nazir müavinlərinin sayı azaldılacaq. Baş nazirin yalnız üç müavininin vəzifəsində qalacağı deyilir. Hazırda baş nazirin biri birinci müavin (Yaqub Eyyubov) olmaqla, 6 müavini (Elçin Əfəndiyev, Əli Həsənov, Abid Şərifov, Əli Əhmədov və İsmət Abbasov) var. Onların çoxu pensiya yaşını artıq haqlayıb Yaqub Eyyubov - 72 yaş (1945-ci il təvəllüdlü), Elçin Əfəndiyev 74 yaş (1943), Əli Həsənov 69 yaş (1948), Abid Şərifov 77 yaş (1940), Əli Əhmədov 64 yaş (1953), İsmət Abbasov 63 yaş (1954). Baş nazir Artur Rasi-zadənin isə 82 yaşı var (1935).

Qaynağımızın sözlərinə görə, müavinlərin üçü pensiyaya göndəriləcək. Qalanlar sırasında YAP-ın icra katibi Əli Əhmədovun olacağı dəqiqdir, Əli Həsənovun və Yaqub Eyyubovun görəvini davam etdirəcəyi deyilir. Bu strukturda da ciddi ixtisarların olacağı dəqiqdir. Çünki ən çox "büdcəyə yük" də məhz NK-dır.

Ümumiyyətlə, təkcə NK deyil, digər nazirlik və komitələrdə yalnız bir müavin ştatının saxlanılacağı iddiası da var. Bu da hökumətin həm bürokratik aparata nəzarət imkanlarını yaxşılaşdıracaq, həm də dövlət idarəetmə aparatında çeviklik yaradacaq.

Bakı Şəhər İcra Hakimiyyətində də rəhbər postlarda ixtisarlar olacaq. İqtisadiyyat Komitəsi, Yaşıllaşdırma Təsərrüfatı Birliyi və Şəhər Kino Xidməti İdarəsi kimi strukturların birləşdiriləcəyi deyilir.

Belə görünür ki, prezident İ.Əliyevin struktur və kadr siyasətini gücləndirmək, qarşıdakı prezident seçkisi ilində daha çevik komanda ilə işləmək və islahatları tormozlayan qüvvələri hakimiyyətdən uzaqlaşdırmaq siyasəti davam edəcək.

❑ **"YM"**

# İşsiz qalan generallar kimdir?

## Üzeyir Cəfərov: "Ali Baş Komandan ölkənin müdafiə və təhlükəsizlik məsələlərini daha da gücləndirmək üçün lazım olan qərarını verib"

**Prezident Administrasiyasında həyata keçirilən islahatlar nəticəsində 2 general vəzifəsini itirib: prezidentin müdafiə məsələləri üzrə köməkçisi Vahid Əliyev və Məhərrəm Əliyev. Bəs bu generallar kimdir? Əvvəllər hansı vəzifələrdə çalışıblar?**

Məhərrəm Əliyev 1951-ci il oktyabrın 20-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Maxta kəndində doğulub. 1973-cü ildən daxili işlər orqanlarında xidmət edib. 1978-ci ildə Moskva şəhər Orta Xüsusi Milis Məktəbini bitirdikdən sonra 131 saylı milis bölməsində cinayət işləri üzrə əməliyyat müvəkkili vəzifəsinə təyin edilib. 1980-1992-ci illərdə Bakının rayon polis idarələrində cinayət-axtarış strukturlarında müxtəlif vəzifələrdə xidmət aparıb. 1985-ci ildə SSRİ Daxili İşlər Nazirliyinin Ümumittifaq Qiyabi Hüquq İnstitutunu bitirib. Bakı şəhərinin Nizami, Sabunçu, Xətai, Səbayel rayon polis idarələrində rəhbər vəzifələrdə çalışıb.

1993-cü ilin noyabrından 2007-ci ilin iyun ayınadək Bakı Şəhər Baş Polis İdarəsinin rəisi olub. 1995-ci ildə prezidentin fərmanı ilə "Azərbaycan bayrağı" ordeni ilə təltif olunub. 2007-2011-ci illərdə Azərbaycanın Tacikistanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışıb.

1969-cu ilin 19 aprelində Bakıda doğulan Vahid Əliyev Andropov adına Leninqrad Ali Hərbi-Siyasi Akademiyasını və Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirib. 1990-1991-ci illərdə SSRİ SQ-nin xüsusi təyinatlı kəşfiyyat alayında xidmət edib, 1991-1996-cı illərdə Azərbaycan Prezidenti yanında Xüsusi idarədə əməliyyat müvəkkili, şöbə rəisi, 1996-cı ilin mart ayından noyabr ayınadək Naxçıvan Muxtar Respublikasında Xüsusi İdarənin rəisi, 1996-1997-ci illərdə Naxçıvan Muxtar Respublikası milli təhlükəsizlik nazirinin müavini, 1997-2002-ci illərdə isə Naxçıvan Muxtar Respublikasının milli təhlükəsizlik naziri vəzifələrində çalışıb. V.Əliyev ölkə başçısının 12 aprel 2002-ci il tarixli sərəncamı ilə prezidentinin köməkçisi, 30 noyabr 2012-ci il tarixli sərəncamla isə Prezident Administrasiyası rəhbərinin müavini təyin edilmişdi.



Məhərrəm Əliyev



Vahid Əliyev

**Generalların vəzifədən kənar saxlanılmasını şərh edən hərbi ekspert Üzeyir Cəfərov deyib ki, baş verənlər gündəlik idarəetmənin bir normal prosesidir:** "Belə mühüm dövləti qərarlar bir günün içində deyil, uzunmüddətli müşahidə və təhlillər əsasında qəbul edilir. Prezidentin köməkçilərindən biri kimi general-leytenant Vahid Əliyevin gündəlik iş prinsipini və fəaliyyətini mətbuatda və hərbyönümlü tədbirlərdə ən çox tənqid edən yoldaşlardan biri bəndəniz olub. Və ədalət naminə deyim ki, yazdıqlarımızdan və açıqladığımız məsələlərdən bir çoxuna hörmətli Vahid Əliyevin özü və xidmətin digər generalları olduqca sağlam reaksiya göstəriblər. Amma xidmətin fəaliyyətində bir sıra ciddi çatışmazlıqlar da mövcud idi ki, məhz onların olması Ali Baş Komandanı razı sala bilməzdi. Və qəbul olunan qərarda bunu hiss edəmək mümkündür. Hər bir komandir istəyir ki, onun güclü qərargahı olsun. Ağıllı və savadlı, bacarıqlı, əqidəsi və mənəvi cəhətləri sağlam olan komanda istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olur. Lakin hörmətli Vahid Əliyevin son vaxtlar onu narahat edən sağlamlığı ona tam şəkildə imkan vermirdi ki, öz vəzifə borcunu layiqincə yerinə yetirsin. Və sözsüz ki, Ali Baş Komandana ölkənin müdafiəsi və təhlükəsizliyi ilə bağlı gündəlik ən operativ və dəqiq xəbərləri məruzə edən şəxslərdən biri də məhz bu vəzifənin daşıyıcısı olan şəxs olmalıdır. Təəssüf ki, son zamanlar ölkə başçısı bu sahədə lazımi şəkildə ətraflı bilgilər almaqda çətinlik çəkdiyinə görə bu sahəni canlandırmaq üçün belə bir qərar verib. Hesab edirəm ki, ölkəsinin indiki şəraitdə müharibə vəziyyətində olmasını gecə-gündüz bilən bir şəxs kimi Ali Baş Komandan doğru olanı nədirsə, onu da edib. Ali Baş Komandan ölkənin müdafiə və təhlükəsizlik məsələlərini daha da gücləndirmək üçün lazım olan qərarını verib. Azərbaycan adlı gəmini bütövlükdə dünyanın təlatümlü okeanında, sağında və solunda əlində güclü silahları olan "pirat və banditlərin" əhatəsindən sağ-salamat, bacarıqla və ustalıqla sahilə çıxartmaq vəzifəsi Ali Baş Komandan kimi cənab İlham Əliyevə həvalə olunub. Ona görə də həm Vahid Əliyevin, həm hörmətli generallardan biri kimi tanıdığım Məhərrəm Əliyevin vəzifələrinin digər sahələrlə birləşdirilməsi və ya təkmilləşdirilməsini əsla harasa yozmaq doğru deyil. Mən də o dəqiq fikirlə razıyam ki, idarəetmə sistemi və icra mexanizmində həyata keçirilən mühüm dəyişikliklər qarşıya qoyulan məqsədlərə çatmaq üçün atılan zəruri və məqsədyönlü addımlardır".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017



# Təbiəti hökumətin xətrinə sevməyin...

## İçimizdəki Ekologiya Nazirliyi

**Bir gün Molla, ağlına nə düşürsə, başlayır quyu qazmağa. Deyinə-deyinə bir neçə yan-yana quyunu qazan zaman yoldan keçən yolçu ayaq saxlayıb soruşur ki, ay Molla, bu nədi, nə axtarırsan? Molla deyir, basdırdığım qızılı axtarıram. Soruşur ki, bəs niyə hər yeri qazırsan, bilmirsən, hara basdırmısan? Molla Nəsrəddin basdırdığı yeri göstərir. Yolçu təəccüblənir və "bəs niyə başqa yerdə axtarırsan", deyə xəbər alır. Molla cavab verir ki, bura işıqlıdır, bura sərf eləyir...**

İndi mənim rastlaşdığım işbazın əhvalatı da buna bənzəyir. Açığı, təsadüf nəticəsində bu məsələni öyrəndim və hesab etdim ki, əhvalatı ictimailəşdirim və həm də daim məni də narahat edən təbiət və insan münasibətlərinə dair fikirlərimi bölüşüm. Dövlət qurumlarını bezdirən bu kimi işbazların təhdidlərinin cəmiyyətə çatdırılması düşünürəm ki, bəzi anormal hesab etdiyimiz məsələlərin həllində az da olsa başqalarına örnək olacaq.

Deməli, əhvalatın dırnaqarası qəhrəmanı fərdi təsərrüfatında ting yetişdirən və bunu məhz Ekologiya Nazirliyinə satıb pul qazanmaq istəyən bir şəxsdir. Bu adamın, deyəsən, Binə istiqamətində 10 hektar torpaq sahəsi var, orada ağac tingləri və qırqovul yetişdirməklə biznes qurub. Allah özünə qismət eləsin, çox yaxşıdır, hətta təqdirolunasıdır. Məsələnin mahiyyətini araşdırdım, dövlət qurumunun səlahiyyətliləri də bu şəxsin təsərrüfatını təqdir edir, ona müraciət etdiyi təqdirdə, imkan daxilində bütün elmi və texniki dəstək verməyə də hazır olduqlarını bildirirlər.

Lakin bu şəxs tutdurub-durub ki, nazirlik onun tinglərini nağd pulla alsın. Dəfələrlə həmin adama izah olunub ki, nazirliyin özünün tingliklərində milyonlarla ədəd ağac yetişdirilir və hər əkin mövsümündə nazirliyin öz tingliklərinin ağaclarından istifadə olunur. Yəni daxili istehsal nazirliyi əkin materialları ilə tam olaraq təmin edir, hətta digər dövlət qurumlarının tinglərə olan ehtiyacını da ödəmək qabiliyyətindədir. Nazirlikdə son 5 ildə 148 milyon 215 min 222 ədəd ting yetişdirilib və 2017-ci ildə isə 10 milyon 125 min ədəd ting yetişdirilməsi planlaşdırılıb. Ona görə də bu dövlət qurumunda kiminsə təsərrüfatından ting almaq üçün vəsait nəzərdə tutulmayıb, üstəlik, qurumun tingliklərinin yaradılması üçün dövlət büdcəsindən əlavə vəsait də alınmayıb. Amma yetmir, adam dövlət yetkililərini təhdid edərək zorla onun malının alınmasını istəyir, bir sözlə, əl çəkmir.

Odur ki, indi onu iş adamı deyil, işbaz adlandırmaq doğru olar. Adamın nazirliklə müqaviləsi yox, sövdələşməsi yox. Yetişdirmisən, əcəb etmisən, sat başqasına. Yaxud da özünə bazar tap, sonra ağac yetişdir... Həqiqətən də məntiqsizlikdir və ya Molla Nəsrəddinin lətifəsi kimi, adam reallığı deyil, ona sərf eləyəni axtarır... Hesab edirəm ki, ucuz və şəraf gətirməyən, haqqını verməyən bir həmlədir, açıq təhdiddir. Onda belə çıxır ki, pomidor yetişdirənin məhsulunu Kənd Təsərrüfatı Nazirliyi, nə bilim dərman bitkisi yetişdirənin malını Səhiyyə Nazirliyi almalıdır?



Əslində mənim bu məsələnin mahiyyətinə varmağım da pul qazanmaq üçün mənliyini, vicdanını unudub təbiətin, cəmiyyətin məntiqinə qarşı çıxanlara öz mövqeyimi bildirmək istəyimlə bağlıdır. Yaxud da əlindəki siqaret kötüyünü öz rahatlığı üçün on addımlıqdakı zibil qutusuna atmayıb, yerə atan insan və təbiət münasibətlərindəndir. Azad iqtisadiyyat, bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Ən azı kiminsə yetişdirdiyi ağacı, pomidoru və ya qırqovulu azad şəkildə bazara çıxarıb satmaq imkanı var. Amma pul qazanarkən, yaxud da bu torpağın, suyun, havanın bəhrəsini görərkən kiminsə bizi əhatə edən təbiətin, cəmiyyətin haqlarına girməsi bir az da cəhalətdir.

Yaşıllığa, təbiətə, ətraf mühitə sevgi niyə belə ədəbsiz forma alıb bizim ölkəmizdə, görəsən?

Məsələn, turizmlə məşğul olub pul qazanmaq istəyən təbiəti məhv edir, öz ambisiyasına, qazanc hərisliyinə təbiətimizi, bizi əhatə edən təbii mühiti qurban verir. Ötən yay Şabranın Zeyvə kəndi ərazisindəki gözəl təbiət mənzərəsi kimi tanınan Əmbil gölü ətrafında baş verənlər hamının yadındadı. Gölün ətrafı, meşə tapdaq altında qaldı, təbii mənzərə məhv olmaq təhlükəsi ilə üzləşdi. Çünki kortəbii və idarəolunmaz turizm təbiətə qarşı birbaşa terrordur. Davamlı turizm, yaşıl turizm, ekoturizm, təbiət dostları və digər bu kimi adlar altında təbiəti zorlamaq özümüzə xəyanətdir.

Öz həmkarlarıma da üz tuturam, bəzən yolda, küçədə qurumuş ağacı görən kimi yazırıq ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi hara baxır? Bir az cəhalət var, deyilmi? Daha bilmirik ki, onlarla qurum, şirkət var ki onların da ekologiya idarələri mövcuddur, onların da öz əraziləri var və həmin ərazilərdə ağac əkirlər, ona qulluq göstərməyə, suvarmağa borcludurlar. Yəni hərə öz əkdiyi ağaca qulluq etməlidir, bu, bəzilərinin düşündüyü kimi, nazirliyin işi deyil. Günahkarı bilmədən, axtarmadan başqasını ittiham etmək nə dərəcədə ədalətlidir? Dostlar, təbiəti hökumətin xətrinə sevməyin, içinizdə varsa, qoy ordan gəlsin bu sevgi. Hərə öz maraqlarını güdürsə, istəklərini yeridirsə, burda təbiətə sevgidən danışmaq olmaz. Yoxsa ting yetişdirmişəm deyə mütləq bunu Ekologiya Nazirliyi almalıdır kimi absurd sevgidən bizim təbiətə yar olmaz!

***

Bugünlərdə dostlarla bir neçə saatlığa Göygöldə olduq. Aramızda Türkiyədən gələn dostumuz da var idi. Əslində ziyarət səbəbimiz qardaş ölkədən gəlmiş dostumuza Azərbaycanın ən füsunkar təbiət hadisələrindən sayılan Göygölü göstərmək idi. Dostumuzu təbiətin gözəlliyi ovsunlamışdı. Yolboyu uzanan meşələr, yamaclarda açmış güllər, yaşıllıqlar elə bizi də öz təsiri altına almışdı. Göygölün ərazisinə daxil olduqda türkiyəli qonağımızın bu müşahidələrinə biri də əlavə olundu - təmizlik. Adam heyrətlə ətrafa baxırdı. Təmizliyə heyran qalmışdı. Bizi müşayiət edən yerli adamlar ona deyəndə ki, burdan iki il öncə tonlarla zibil daşınıb, yüzlərlə yük maşını ilə tullantılar atılıb, buna inanmaq istəmədi. Ona bildirdik ki, Göygöldə bu təmizliyi, disiplini yaratmaq üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi neçə ildir ki, sözün əsl mənasında mücadilə verir. Türkiyəli dostumuz ruhunu Göygölün gözəlliyinə tam təslim etmişdi. O, Qaradəniz bölgəsindəki, Trabzondakı Uzungöl deyilən vadi ilə Göygölü müqayisə etdi. Dedi ki, artıq Uzungöl deyə bir şey qalmayıb. Ətrafda inşa olunan binalar oranı məhv etmək ərəfəsindədir. "Siz Göygölü bu şəkildə qorumağa davam edin, qoymayın insanlar buranı Uzungölə döndərsinlər". Belə dedi dostumuz.

Sonra Maralgölə getdik. Eyni təmizlik, səliqəlilik orda da vardı. Əsas diqqətçəkən məqam isə ən ucqar yerlərdə belə zibil qablarının qoyulması idi. Bu, təkcə təmizlik məqsədi daşımır, məncə. Bu qutular həm də vətəndaşa bir mesajdı, zibillə davranmaq mədəniyyəti aşılamaqdı. Maralgölə qalxan pilləkənlərin meydançalarında və gölün girişində tullantı üçün nəzərdə tutulan qutular diqqətimizi çəkdi.

Biz özümüz heç bir nəzarət olmadan ətraf mühitlə, təbiətlə davranmağı bacarmalıyıq. Evimizin içində necə davranırıqsa, evimizdən 100 kilometrlərlə uzaqda da o cür olmalıyıq - təmizliyə, səliqəliliyə riayət etməliyik.

**Bir sözlə, hər birimizin içində bir Ekologiya Nazirliyi olmalıdı. Bu ölkə, onun meşəsi, gölü, təbiəti bizimdi. Bizim olanı qorumalı və ona sahib çıxmalıyıq.**

❑ **A.ABBASLI**

YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017



# Öküzlərin zamanı

Zamin HACI
zaminhaci@gmail.com

## "Bir dana bir naxırın adını batırar"

*(Azərbaycan ata sözü)*

**1 qram nikotin atı öldürür söhbətini eşitmiş olarsınız. Eynilə 1 qram nefti də 25 litr suya qatsan içilməz hala gəlir. Ruslarda məsəl var, tərcüməsi "bir qaşıq qatran, bir çəllək balı korlayar" kimidir.**

Bunu niyə yazıram? Son çağlar dünyada gedən mərkəzdənqaçma, totalitarizm meyllərinin güclənməsi, demokratik hərəkatların, açıq cəmiyyətlərin uğursuzluğu üzərində çox düşünürəm. Mənə elə gəlir ki, dünya pis örnəklərə lazım olduğundan çox dözdü. Nəticədə özləri də pisə çevrildilər. Bizim məşhur ata sözündəki yan-yana bağlanan atların durumu yarandı.

Təzəlikcə İsveçrədə sosial şəbəkədə kiminsə statusunu bəyənən adamı cərimə elədilər. İndi bu örnək Azərbaycan tipli ölkələrdə facebooku total nəzarətdə saxlayan hakimiyyətlər üçün göydəndüşmə olmadımı? Hətta İsveçrədəki hadisənin detalları bu hərəkətə haqq qazandırsa belə, bunu bizim burnumuzdan gətirəcəklər, hər dəfə hansısa azadlıq tələb edəndə başımıza vuracaqlar. Bir dəfə, hələ 10-15 il qabaq deputatxana spikeri Murtuz müəllimin Azərbaycanda sərbəst toplaşma hüququ tələb edənlərə söylədikləri indiyəcən yadımdadır: "Siz bizim polisdən şikayətlənməyin, İngiltərədə onlar müxalifəti atın qabağına salıb qovurlar".

Yaxşı adamların, demokratik dövlətlərin bu mənada məsuliyyəti çox böyük idi, təəssüf ki, onlar bu məsuliyyəti dərk etmədilər. Qədim latın məsəlində deyilir: "Yupiterə icazə verilən, öküzə olmaz". Ancaq Yupiter daim özünü öküz kimi aparırsa, öküzlər niyə bundan örnək almasın və dünyanın hər yerindən ilahə Avropaya cummağa başlamasın? Əgər Almaniyanın keçmiş kansleri Şredör rusların "Qazprom" şirkətindən rüşvət alacaq qədər düşürdüsə, Britaniyanın baş naziri Toni Bleyer Bakı ətrafında metanol zavodunu reklam eləmək üçün (indi bu zavodun xarabası üstündə kuloklar uçur) 50 min avroya tamah salırdısa, hətta sonradan guya demokrata çevrilən Obama kimi adam senator olarkən Azərbaycana səfərini "Mızdonalds" burgerlərini daha yaxşı satmağın lobbiçiliyinə sərf etmişdisə, başqalarından nə gözləyəsən?

Söz azadlığının tabutuna sonuncu mıxlar vurulur, ABŞ səfiri isə bu temada suala ötən həftə belə cavab vermişdi: "Biz prosesi izləyirik. Vaşinqtondan bu haqda münasibət olacaq". Əlbəttə. Bilirik necə olacaq. Tramp necə deyir? "Hər şeydən öncə Amerika!" Düz də deyir. Alverinizi eləyin, çıxın gedin, boş-boş demokratiya nağıllarınızı isə Hollivuda təklif edin, kino çəksinlər. Misal üçün, "Rembo-17" filmi. İslam ixrac edən İran sizdən səmimidir. Sözgəlişi, Manuel Noryeqa da bu həftə öldü. Ancaq deyəsən, o birinin soyadı Somosa olmalıydı. Bəlkə də yanılıram...

Yaxşı yadımda düşdü, indiki gənclər tanımaz, bir Viktor Kojeni vardı, beynəlxalq dərəcəli dələduz idi, ancaq özəlləşdirmə vaxtı bizimkilər onu tovlayıb xeyli pul atmışdılar. Göz dəyməsin, biz axı bu işdə dünya çempionuyuq. Həmin Kojeni uzun illər ABŞ məhkəmələrində Azərbaycan hakimiyyətinə qarşı şantaj əsgisi kimi istifadə edildi. Nəsə almaq istəyəndə görürdün xəbər çıxdı: "Kojeni məhkəməsi təzədən başlayır". Beləcə, qarşılıqlı olaraq rejimlər uzun müddət sevişdilər, bir-birindən kam aldılar, murada yetişdilər. Ara yerdə nə olurdusa döşəyə - yetim azərbaycanlılara olurdu, qalan hamı razı idi. İndi çoxdandır Kojenidən xəbər gəlmir. Görünür, çox işlədib materialı cırdılar. Səfirin sözü olmasın, buna görə çox narahatam.

Donald Trampın qlobal istiləşmə əleyhinə Paris müqaviləsindən çıxması da bu prosesdə bir həlqədir. Dünya yavaş-yavaş da olsa, başa düşəcək ki, ona əsas təhlükə Şimali Koreyanın toppuş lideri deyil. Planetin istiliyini qaldıran başqalarıdır. Sözün əsl mənasında. Hətta keçmiş KGB agenti Putinin zarafatları Trampın tvitlərinə baxanda xeyli gülməlidir. Misal üçün, ABŞ planet atmosferinə bütün başqa dövlətlərin hamısından çox parnik qazları atırmış: 15 faizi onun payına düşür. İndi isə bu prosesi dayandırmaqdan rəsmən imtina etdilər. Prezident seçdikləri adam deyir məni Amerika camaatının pul qazanması düşündürür, cəhənnəm olsun Parisin havası...

Bizdə isə bəziləri hələ fikirləşir ki, beləsi 14-cü kolonda daş tozu udan blogger Mehman Hüseynova görə narahat olacaq. Adətən belə məqamda "bəs təklifin nədir" deyirlər. Təklifim odur ki, gəlin Formula-1 yarışına hazırlaşaq.

# Moskva və Ankaradan Bakıya müharibə zəmanəti - centlemen anlaşma?

**Rusiya ilə ABŞ başda olmaqla, Qərb arasında münasibətlər gərgin olaraq qalır. Donald Trampın prezident seçiləcəyi ilə sanksiyaların götürüləcəyinə böyük ümidlər bəsləyən Moskvanın hesablamaları özünü doğrultmadı. Tramp vəd etdiyini yapa bilmədi, buna nəinki Amerikanın "dərin dövlət"i imkan vermədi, üstəlik, Ağ Evin yeni başçısının özünü belə, bu dəqiqə baş qaldırmağa qoymurlar və hətta onun impiçment məsələsi gündəmə gəlməkdədir.**

## Qərb Putini sıxışdırdıqca Türkiyə və Azərbaycanın Kreml üçün önəmi artır; ortaq əməkdaşlıq və "güc nümayişi" üçün ən uğurlu platforma Cənubi Qafqaz, Qarabağdır...




Doğrudur, Tramp Avropanın aparıcı dövlətləri - Almaniya və Fransa ilə də münasibətlərə kölgə salmağa başlayıb. Ancaq Rusiyaya münasibətdə Qərbin ortaq yanaşması dəyişməz qalır - sanksiyalar tezliklə götürülməyəcək. Bu xüsusda ABŞ prezidenti həmçinin deyib ki, Rusiya Krıma görə cavab verməlidir.

*****

Ötən həftə prezident Vladimir Putinin Fransaya etdiyi səfər və yeni prezident Emmanuel Makronla apardığı danışıqlar isə Kreml başçısını daha məyus ovqata kökləmiş oldu. Rəsmi Moskvanın Fransanın yeni rəhbərliyindən gözləntiləri də fiasko oldu. Putin Makrondan heç bir pozitiv vəd, kömək ala bilmədi.

Bu harasıdır, bəzi siyasi təhlilçilər Rusiya-Qərb münasibətləri kontekstində Moskvaya daha qaranlıq gələcək vəd edirlər. Onların qənaətincə, nə qədər ki, V.Putin hakimiyyətdədir, Rusiyaya ABŞ və Avropanın (Avropa Birliyinin) münasibəti kardinal şəkildə yaxşıya dəyişməyəcək.

"Qərb liderləri Krımın anneksiyası və Donbas savaşından sonra Rusiya Prezidenti Vladimir Putinin üzərindən xətt çəkiblər". Bunu jurnalistlərə açıqlamasında **rusiyalı ekspert Slava Rabinoviç** söyləyib (Axar.az). "Onlar anlayırlar ki, bu insanla danışmaq artıq mümkünsüzdür. Putini aradan götürəcəklər. Əsas məsələ bunun necə və nə zaman baş verəcəyidir. Putinin hakimiyyətdən getmə prosesindən bütün ruslar əziyyət çəkəcəklər", - deyə o iddia edib.

Doğrudur, hələ ki Putinin ölkə daxilində reytinqi Krımın ilhaqına görə kifayət qədər yüksəkdir. Lakin o da faktdır ki, Rusiyanın ərazisi 2014-cü ildə Ukrayna ərazisi hesabına böyüsə də, əhalisinin durumu ilbəil pisləşir. Səbəb təkcə neftin ucuzlaşması deyil, həm də Qərbin üç ildir davam edən maliyyə-iqtisadi sanksiyalarıdır.

Rəsmi Moskva bu sanksiyaların təsirini nə qədər azaldıb görməzlikdən gəlməyə çalışsa da, ölkə iqtisadiyyatında tənəzzül prosesi davam etməkdədir. Rusiya rəhbərliyinin sanksiyaları aradan götürmək üçün Qərb ölkələri arasında parçalanma yaratmağa yönəlik səyləri artırmasının əsas motivi də budur - iqtisadi tənəzzül, əhalinin güzəranının aybaay pisləşməsi. Kremldə hətta Rusiya daxilində "rəngli inqilab"ın baş verəcəyindən dolayı narahatlıq yaşanmağa başlayıb.

*****

Yaranmış siyasi pat vəziyyətində Rusiya üçün xüsusilə də Türkiyə ilə münasibətlərin önəmi sövq-təbii artıb. Həm də o səbəbə ki, qardaş ölkənin özünün də PKK, Suriya məsələləri ilə bağlı Avropa və ABŞ-la münasibətlərində hazırda gərginlik yaşanmaqdadır. Yəni ilk baxışda iki dövlətin bir-birinə ehtiyacı artmış kimi görünür.

Maraqlıdır ki, Parisdən "əliboş" qayıdan Putin dərhal Ankaraya "S 400" raket sistemlərini verməyə hazır olduğunu bəyan edib. Putin bu xüsusda deyib: «S-400» raket sistemlərinin nələrə qadir olduğunu həm rus, həm də türk nümayəndələr yaxşı bilirlər". Bu sözləri Rusiya lideri Hindistanın baş naziri Narenda Modi ilə görüşündən sonra keçirilən mətbuat konfransı zamanı söyləyib.

**"S-400" sistemlərini hələ ki ölkə xaricində istehsal etməmişik. Bu gün Hindistan baş naziri ilə «S-400»ü necə və hansı şərtlər daxilində istehsal edəcəyimizi müzakirə etdik. Çox böyük hazırlıq lazımdır. Lakin mümkünsüz heç nə yoxdur. Modern silahların xaricə satılması mövzusuna yenidən qayıdacağıq", - Rusiya dövlət başçısı bildirib.**

Bu sözsüz ki, Qərbə ilk növbədə onun mesajıdır ki, Rusiya heç də təklənməyib və onun Türkiyə, Hindistan kimi yeni strateji, iqtisadi, hərbi-texniki tərəfdaşları var. Lakin strateji tərəfdaşlıq ikitərəfli anlayışdır. Konkret olaraq, Türkiyəyə gəlincə, qardaş ölkənin Rusiyadan Güney Qafqazla bağlı da gözləntiləri var və o sıraya həmçinin Dağlıq Qarabağ konfliktinin həlli daxildir.

*****

İndi nə qədər deyilsə də ki Cənubi Qafqazda Ankara və Moskvanın maraqları toqquşur, burada iki dövlətin uzlaşma nöqtələri də kifayət qədərdir. Biri elə Qarabağ məsələsində əməkdaşlıq. Məsələ ondadır ki, böyük müharibə variantında Türkiyə və Rusiyanın ona qoşulması və bir-biri ilə üz-üzə gəlmək riski var. Bu isə əlaqələri yüksəliş dövrünü yaşayan Moskva və Ankaraya sərf eləmir. Qalır əməkdaşlıq variantı.

Son vaxtlar Qarabağ münaqişəsi zonasında hərbi toqquşma riskinin xeyli artması, status-kvonun həddən artıq həssas duruma gəlməsi ən əvvəl bu iki regional supergücü təcili ortaq uzlaşma nöqtələri tapmaq zorunda qoyur. Tapılacaqmı? Sualın cavabı sözsüz ki, daha çox Kremldən, Putindən asılıdır. Çünki işğalçı Ermənistana, İrəvana ən böyük təsir imkanları hələ ki ondadır.

Məsələ də ondadır ki, Dağlıq Qarabağ məsələsi Türkiyə ilə Rusiya arasında gündəliyin ortaq mövzusu ola və yaxşı mənada ilk presedent kimi tarixə düşə bilər. Hətta mümkündür ki, bundan ötrü Rusiya və Türkiyə gizli bir centlmen anlaşmasına uyğun şəkildə, problemin həllində irəliləyiş naminə Bakıya müharibə zəmanəti də versin. Söhbət ötənilki 4 günlük aprel müharibəsinin daha geniş miqyasda təkrarlanması və işğalçı tərəfə sülhə gəlmək üçün daha ağrılı qulaqburması verməkdən gedir.

❑ **Analitik xidmət**

**ABŞ prezidenti Donald Trampın Respublika günü və "Xəzər Neft və Qaz-2017" sərgisi ilə əlaqədar prezident İlham Əliyevə ünvanladığı təbrik məktublarından sonra iki ölkə arasındakı münasibətlərə yeni nəfəs gəldiyi bildirilir. Son illərdə Vaşinqton-Bakı münasibətlərində müşahidə olunan soyuqluğun artıq arxada qaldığı vurğulanır. Trampın Obama dövrünün üstündən xətt çəkdiyi, başqa ölkələrin daxili işlərinə qarışmamaq siyasəti yürütdüyü bildirilir.**



# Deputatdan və keçmiş baş nazirdən ABŞ-Azərbaycan münasibətləri barədə ilginc açıqlamalar

## Pənah Hüseyn: "Tramp məsələsində ehtiyatlı olmaq lazımdır"

**Deputat Zahid Oruc** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ABŞ prezidentinin bir həftədə Azərbaycana, onun prezidentinə iki dəfə məktub göndərməsi və məktubda yazılan fikirlər Azərbaycan cəmiyyətində müsbət qarşılanıb. Barak Obama dövrünün mirasından imtina olunduğuna dair qənaətləri bu məktublarda yazılanlar bir daha möhkəmləndirib: "Bununla belə, biz hər hansı bir uzaqgedən mühakimələrdə bulunarkən onu nəzərə almalıyıq ki, Tramp hazırkı dövrdə Amerikanın daxili həyatında ciddi müqavimət qüvvələri ilə üz-üzədir və bir sıra hallarda bu, böhranlı idarəçiliyə yol aça bilər. Əgər o, müxtəlif hakimiyyət qollarının qarşılıqlı nəzarət və balans funksiyası ilə çalışan qurumların qovğasından, mühakimələrindən xilas ola bilsə, heç şübhəsiz ki, beynəlxalq siyasətdə də özünün güclü nəticələrini yaradacaq. Çünki Trampın ifadə elədiyi platforma təkcə Amerikanın daxili həyatında bir inqilab yaratmadı, eləcə də onun beynəlxalq münasibətlər sisteminə yeni bir yanaşması demək idi. Tramp bəyan edirdi ki, onlar inqilab "ixracı" ilə məşğul olmayacaqlar, müxtəlif ölkələrdə siyasi hakimiyyətlərin dəyişdirilməsi planlarını hazırlamayacaqlar, daha real, bəlli bir məkan üzərində hərəkət edəcəklər və sair. Təkcə bunlar yetərlidir ki, ABŞ-ın beynəlxalq siması dəyişsin. Trampın hakimiyyətə gəlməsinin yarada biləcəyi dəyişiklik Azərbaycanın dövlət başçısının bəlli bəyanatında da ifadə edilmişdi. Prezident İlham Əliyev söyləmişdi ki, köhnə hakimiyyət nümayəndələrinin siyasi sistemdən, elitadan, vitrindən getməsi özü artıq mühüm bir nəticədir. İkincisi, xanım Klintonun regional və beynəlxalq siyasətdə keçmişdə yarımçıq qalan məsələləri davam etdirməsi Azərbaycanla yeni toqquşma səhnələri demək idi. Üçüncüsü, əlbəttə, biz bir qədər daha realistcəsinə danışmalıyıq ki, bu gün ABŞ-ın ölkədə itirdiyi mövqeləri bərpa etməsi regional konfiqurasiyaya, geopolitik düzənə təsir göstərəcək".

**Deputat vurğuladı ki, Obama dövründə itirilmiş imkanlar var. Sadəcə, neft, qaz sahəsində əməkdaşlıqla proses bitə bilməz:** "Yalnız Gürcüstana tank-top yeritməklə Qafqazın taleyini həll eləmək də qeyri-mümkündür. Rusiya əgər müəyyən bir məkanda, xüsusilə postsovet aləmində öz imkanlarını dərinləşdiribsə, ABŞ-ın burada itirdikləri hesabına olub. Ona görə də Azərbaycan Amerika ilə yaxşı münasibətlərdə maraqlıdır. Qətiyyən bizim guya hansısa demokratiya, insan haqları məsələsindəki tələblərə görə ölkəmizin Qərb yönümündən imtina etməsi haqqında deyilənlər yanlışdır. Biz, sadəcə, deyirik ki, inqilab ixrac olunmasın, daxili işlərə qarışılmasın, diktə edilməsin. Amma əlbəttə ki, ayrı-ayrı məsələlərdə dialoq mühitində bir çox yeni addımlar atıla bilər və biz də bunun tərəfindəyik. Ulu öndər Heydər Əliyevin dövründə Azərbaycan-ABŞ münasibətləri xeyli irəliyə gəlmişdi. Hətta bu, 2008-ci ilə qədər də davam etməkdəydi. Sonrakı dövr təkcə Azərbaycanla bağlı deyil, digər ərazilər üzrə də Amerikanın siyasi doktrinləri dəyişdi və bu da özünün fəsadlarını doğurdu. İndi bundan sonra nə dərəcədə imkan olacaq ki, Tramp elan elədiyi kursu həyata keçirsin bu, ayrı söhbətin mövzusudur. ABŞ Azərbaycana doğru addımlar atdıqca, bu, bölgədəki təhlükəsizlik prosesinin də xeyirinə olacaq, bir sıra başqa iqtisadi proyektləri də işləmək mümkündür, demokratiyanın dərinləşməsi sahəsində də real addımlar atıla bilər. Azərbaycan Gürcüstan kimi Qərb strukturlarından yardım almaqda maraqlıdır. Ancaq bu, "Rusiya ilə döyüşməlisiz, bu kursu aparmalısınız" şərti ilə olmamalıdır. Çünki bu cür şərtlər bizi 1990-cı illərə qaytarmaqdır. Azərbaycanın Rusiya ilə münasibətlərinin toqquşması hesabına Amerika ilə münasibətləri yaxşılaşdırması yolu arxada qalıb. Bir daha biz ona qayıtmayacağıq. Ümid edək ki, bölgəni tanıyan şəxslərə meydan veriləcək. Onlar da daşıdıqları material-larda Azərbaycanı vacib strateji bir ölkə kimi dəyərləndirəcəklər. Bu isə bölgənin həyatında dəyişikliklərə səbəb olacaq".

**AXP sədri Pənah Hüseyn isə bildirdi ki, ABŞ prezidenti tərəfindən hər il bu cür ənənəvi protokol məktubları Azərbaycana ünvanlanır. Prezidentin kim olmasından asılı olmayaraq protokol qaydasında hər il bu cür məktublar göndərilir. Mətnləri də əsasən əvvəlki illərdəki mətnlərə uyğun olur:** "Ona görə də mən bunu ABŞ-Azərbaycan münasibətlərində ciddi irəliləyiş kimi qiymətləndirmirəm. Burada əsas maraqlı cəhət Azərbaycan tərəfindən ABŞ prezidentinin siyasətinə olan təriflərdir. Bu gün dünyada Tramp və onun siyasəti ciddi diskussiya mövzusudur. Hətta ABŞ-ın özündə və Trampın komandasında belə, bu siyasət tənqidlərə məruz qalır. Belə bir dövrdə Azərbaycandan həmin siyasətə təriflərin olması diqqət cəlb edir. Mənim fikrimcə, bu cür açıq mövqe ifadəsinə bəlkə də ehtiyac yoxdur. Məncə, bu məsələdə tələsmək lazım deyil. Şübhəsiz ki, Trampın tənqidinə də qoşulmaq da tərəfimizdən təklif olunmur. Tramp məsələsinin nə ilə qurtaracağını gözləmək lazımdır. Ümumiyyətlə, Azərbaycanın siyasətində çox qəribə hallar müşahidə edirik. Məsələn, Rusiya ilə münasibətdə də qəribə bir mənzərə müşahidə olunur. Bir ara Rusiyaya çox böyük təriflər, müsbət şərhlər verilir. Az sonra başqa bir təəssürat yaranır ki, artıq Rusiya ilə Azərbaycan arasında soyuq müharibə başlayıb. ABŞ-la bağlı da vəziyyət bu cürdür. Bu da Azərbaycanın xarici siyasətində müşahidə olunan hallardan biridir. Mənim mövqeyim bundan ibarətdir ki, Tramp məsələsində ehtiyatlı olmaq lazımdır. Strateji olaraq Tramp və onun siyasəti ilə bağlı prosesin nə ilə qurtaracağı məlum deyil".

**P.Hüseyn qeyd etdi ki, hələlik Trampın hakimiyyətindən Azərbaycana real dəstək istiqamətində addımlara rast gəlinmir:** "Azərbaycanın əleyhinə ABŞ tərəfindən qəbul edilmiş konkret qətnamələr var. Həmin qətnamələrin ləğvi və ya yumşaldılması istiqamətində hər hansı addımlar yoxdur. Bu istiqamətdə addımlar atılsaydı və yaxud Qarabağ məsələsində hansısa bir müsbət addım olsaydı, bu halda ABŞ-ın Azərbaycana yeni münasibətindən, Obama zamanında olduğundan müsbətə doğru dəyişikliklərin başlandığından danışmaq olardı.

Tramp insan hüquqları, demokratiya məsələsində ənənəvi Qərb siyasətindən fərqli bir mövqe tutur. Bu da bir sıra ölkələrin iqtidarlarında sevinc yaradıb, müvəqqəti də olsa daxili təbliğat üçün şərait yaradıb. Lakin bütün bunlar müvəqqətidir".

❑ **Etibar SEYİDAĞA**

# İçimizdəki şeytanı necə zəncirləməli?



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**11 ayın sultanı mübarək Ramazan ayındayıq. Bu ayın biz öləri insanlara bir qiymətli tövsiyəsi də ətrafımızdakılara, bizdən zəiflərə və yoxsullara qarşı daha mərhəmətli olmaq, yardımlaşmaq və günah işlərdən uzaq durmaqdır. "Şeytanın zəncirləndiyi" ayda insanın şeytani işlərdən çəkinməyə səy etməsi onun başlıca görəvi sayılır.**

Əslində sadalanan keyfiyyətlər bütün il boyu insana xas olmalı, onu müşayiət etməlidir. Bundan ötrü isə yerdə qalan 11 ayda da ən əvvəl nəfsin pəhrizinə ciddi ehtiyac var. Bu isə doğrudan da, asan deyil. Asan olsaydı, daha XXI əsrdə də dünyada müharibələr, qan-qada, ac-yalavaclar ordusu olmazdı ki.

İslam Peyğəmbəri (s) nəfsə qalib gəlməyi ən böyük cihad adlandırıb. Gerçəkdən də insan üçün ən şirin nemət - yaşamaqdır, yaşamaq nəfsidir, həyatda qalmaq həvəsidir. Yaşamağı hansı canlı sevmir ki? Və əgər bir şəxs yaşamaq nəfsinə şüurlu şəkildə qalib gəlirsə, o, artıq şəhiddir. Təbii ki, intihar kimi günah əməldən söhbət getmir. Torpaq, irz-namus uğrunda həlak olanlar nəzərdə tutulur. Nəfsə qalib gəlməyin tək yolu isə - içimizdəki şeytana qalib gəlməkdən keçir.

***

Mübarək Ramazanın fəzilətlərindən biri də əliaçıqlıq, xeyirxahlıqdır. Bir aforizmdə deyilir ki, "Nəyi verdinsə, o sənindir, nəyi gizlətdinsə - onu itirdin". Verməkdən yox, gizlətməkdən qorxaq! Çünki gizlilik, paxıllıq, xəsislik insanın qeyri-təbii durumudur, yardımsevərlik isə - əksinə, ilahidən gələn təbii halıdır.

Təbii halımızdan uzaqlaşmayaq! Zira, insan öz ilahi təyinatından uzaqlaşdıqca cılızlaşır, çünki ali məxluq sinfindən heyvani varlıqlar cərgəsinə qoşulur. Özünə qayıdanda isə əks proses gedir: böyüyür, ucalır, reabilitasiya olunaraq Ali dərgahda yenidən əvvəlki yüksək məqamına qalxır - təzədən yaradılışların əşrəfi olur.

Bir misal: nədən insan təbiətin qoynunda özünü rahat hiss edir? Ona görə ki, özü də ana təbiətin ayrılmaz parçasıdır, təbiətlə vəhdətdədir və o üzdən ondan uzaqlaşdıqca daxili nizamı pozulur, azarlayır, səhhəti pisləşir...

***

Bəs içimizdəki şeytanı necə zəncirləyək ki, Allahın kodlaşdırdığı mahiyyətdən, missiyadan uzaqlaşmayaq? Bunun da cavabını müdriklər, ilahiyyatçılar, filosoflar verib: nəfsə qalib gəlmək, nəfslə daimi və əbədi mübarizədə olmaq, onu nəzarətdə saxlamaq; nəfsin insanı idarə eləməsinə şans tanımamaq, ruhun təmizliyinə diqqət eləmək!

Nəfsə qalib gəlmək üçünsə insanın özünün öləri, müvəqqəti varlıq olduğuna dərk eləməsi yetər. Deyirlər, insan hər gününü son günü kimi yaşaya bilsə, heç vaxt günah və pislik eləməz. Yəni sabah öləcəyini bildiyin halda bu gün necə dürüst, halal yaşayardınsa, hər gününü də bax, o cür yaşa.

Düzgün yaşam formulu, həyat resepti bu dərəcədə sadə. O zaman nəfs və onun cürbəcür gözqamaşdırıcı, parıltılı vəsvəsələri, maddi şirinlikləri gözündə heçə çevriləcək. Yerdə isə yalnız pak, ülvi, ruhani hisslər və duyğular qalacaq.

Bundan ötrü öncəliklə təfəkkürümüzün, düşüncələrimizin pəhrizinə, mədəmizlə yanaşı, fikirlərimizin, ruhumuzun da oruc olmasına ehtiyac var. Müqəddəs Ramazanın insana, müsəlmana aşıladığı ən dəyərli məqamlardan biri də budur.

Həzrəti Əliyə (ə) görə, insanın günah etmədiyi gün bayramdır. Nə gözəl. Bütün günahların başında isə məgər nəfsani istəklər gəlmirmi?..

Yardımlaşma, yaxşılıq derkən isə tək maddi dəstək nəzərdə tutulmur. Kimin nəyə gücü çatır. Peyğəmbər əfəndimiz (s) buyurur ki, "Qonşusu ac yatan bizdən deyil". Yenə buyurur ki, "Bəzən bir təbəssüm də sədəqədir". Yəni yaxşılıqdır. Heç olmasa, üzümüzdən təbəssümü əskik eləməyək...

***

Əlbəttə, sözdə demək asandır. Hər şey əməllə ölçülür. İslamın özü də əməl dini, əxlaq dini hesab edilir. Yoxsa ki, yalnız vaxtlı-vaxtında ibadət eləməklə, bütün günü namaz qılıb-oruc tutmaqla kamil insan, modern müsəlman olmaq, cənnəti qazanmaq mümkün deyil. İslam tərki-dünyalığı rədd edir, xoşbəxtliyi, səadəti, cənnəti cəmiyyətlə olmaqda, cəmiyyətlə münasibətlərdə axtarmağı vacib bilir (Hərgah, ibadəti tərk eləmək də doğru əməl sayılmaz, günah hesab edilər).

İnsanın cəmiyyətdən kənar xoşbəxtliyi yoxdur, ola bilməz! Mübarək ayın bir fəziləti də insana bu hissi, sosiallaşmağı aşılamaqdan ibarətdir. Bu gün Azərbaycan toplumunda ən çox qıt olan keyfiyyət həqiqətən də mərhəmət hissidir. Demək, bizim oruca, pəhrizə, ruhun təmizlənməsinə daha çox ehtiyacımız var...

YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017



# Şərqdə vəzifəli qohum amili

Samir SARI

**Bu vəzifə ki, var, elə-belə şey deyil. Onun dadını, ləzzətini yalnız onu tutanlar bilər - xüsusilə də əllərindən çıxandan sonra.**

Bir bizdə deyil, biz gündə olan başqa ölkələrdə də vəzifə dünyanın ən şirin nemətidir. Ağlınız Yaponiyaya, bəzi Avropa ölkələrinə getməsin, oralarda vəzifə, xüsusilə də yüksək vəzifə tutmaq üçün ölüm-dirim savaşı aparmırlar.

Məsələn, Yaponiyada ən yekə vəzifə baş nazir postudur, onu tutan adam ən çoxu 5 il işləyir, sonra xahiş-minnət eləsələr də deyir, özünüzə başqa nökər tapın. 5-6 il əvvəl Cennaro Kouzumi elə demişdi. Adamın partiyası parlament seçkilərində qalib gəlmişdi və o daha 4-5 il baş nazir ola bilərdi, amma Koudzumi istefa vermişdi ki, qoy başqaları işləsin, mənə bəsdir, istirahət edəcəm.

Bizim Artur müəllimin üstündə Yaponiyada 8-9 baş nazir dəyişib. Dözməyiblər. Ən çox işləyən postunda 5 il qalıb, əksəriyyəti isə 2-3 il işləyib. Ona görədir ki, indiyədək Yaponiyada baş nazir olmuş şəxslərin sayı 90-ı aşıb. Onların yarısı sağdır. Ölkə sabiq baş nazirlərlə qaynaşır.

Amma sözüm bunda deyil, ondadır ki, görünür, yaponlar dözümsüz camaatdır, bizim kimi xalq yolunda cəfakeşlik, fədakarlıq edə, vəzifədə çox otura bilmirlər.

Sən vəzifənin nə demək olduğunu bizdən, yaxın coğrafi meridianda yaşayan adamlardan soruş, onun nə demək olduğu barədə sənə elə bir fəlsəfi traktat söyləyərlər ki, dünyaya sırf vəzifə tutmaq üçün ikinci dəfə gəlmək istəyərsən.

Yaponlarda elə fəlsəfi traktatlar yoxdur, onlarınkı başqa şeydir, bu cür söhbətlərdən uzaqdırlar. Yaxın Şərqlə Uzaq Şərqin bir fərqi də budur.

Yaxın Şərq vəzifə uğrunda yarım milyon insanın gündaza verildiyi yerdir, Uzaq Şərq yarım milyon dollara görə prezidentlərin, nazirlərin istefaya göndərildiyi məkandır.

Bax, budur, ölkəmizdə struktur dəyişikliyi olub, Prezident Administrasiyasında yüksək vəzifədə çalışan bəzi adamlar yeni komandada yer almayıblar, futbol dili ilə desək, "ilk 11"-ə düşməyiblər, bu üzdən sosial şəbəkədə vay-növsə qopub, eyzən mərsiyə gedir. Sual qoyanlar var: "Necə olacaq onların halı?"; "Barələrində yeni təyinat olacaqmı?" və s.

Baxırsan ki, onlar hətta Kouzumidən də yaşlıdırlar, azı 25 il idi ki, yüksək vəzifələrdə idilər, istirahətə ehtiyacları vardı, gedib dincəlməlidirlər. Amma yox. Onların, eləcə də qohum-əqrəba, dost-tanış və həmyerlilərinin fikrincə, bu, "vurulma"dır, karyeranın baltalanmasıdır, faciə kimi bir şeydir.

Əmin olun ki, bu saat minlərlə adam oturub qara-qara düşünür ki, bu hadisə, yəni vəzifəli qohumun vəzifəsiz qalması qiyamət hadisəsi kimi bir şeydir.

Bir tərəfə baxanda onlar düz düşünürlər, bura yapon ölkəsi deyil axı, bura YAP-ın ölkəsidir. Burda vəzifədən çıxarılanların nəinki özünün, heç qohum-əqrəbasının da gözünün yaşına baxmırlar. Bir müddət keçir, vəzifədən götürülən adamın qardaşı polis rəisidirsə, saunada iki nazəninlə şalvarsız tutulur, işdən qovulur, deputatdırsa, növbəti dəfə seçki siyahısına salmırlar, biznesmendirsə, əlindəki müəssisələrdən 4-5-ni satdırır, ucuza alırlar, daha nə bilim, nələr.

Hələ bunun vəzifəli qohum hesabına irəli getmək, yaxşı işlərə düzəlmək istəyən yüzlərlə gənc qohumları, həmkəndliləri var, hamısının arzuları puç olur.

Bu baxımdan vəzifə məsələsi həssas məsələdir. Vəzifəli olmaq qəbilə başçısı olmaq deməkdir. Əgər səni nazir postuna təyin ediblərsə, avtomatik olaraq nəslin, hətta doğulduğun rayonun ağsaqqalı olursan, hər şeyə sən cavabdehsən. Vəzifədən çıxarıldığın gün hörmət-izzət puç olur, gedir, olursan Kouzumi və ya Qozumaki kimi bir şey.

Bu üzdən idi ki, hələ sovet dövründə bizim kəndin ağsaqqalları ölkədə nə qədər vəzifəli adam vardı, hamısının doğulduğu rayonları, avtobioqrafiyalarını, qohumluq əlaqələrini əzbərdən bilirdilər. Düzdür, bu, onların tam əksəriyyətinə heç vaxt lazım olmurdu, amma bilir, yadda saxlayır, müzakirə edirdilər. Onlar üçün dünyanın ən böyük siyasi hadisəsi kiminsə böyük vəzifəyə təyin edilməsiydi.

Heç demə, ölkənin çox yerində eləymiş və bu kimi bilgilərdən, vəzifəli qohum amilindən eninə-uzununa yararlananlar varmış.

Bax, indi o cür adamların vəzifəli qohumunu işdən çıxarıblar. Hazırda onlar özlərini repressiyaya məruz qalmış etnik azlıqlar kimi hiss edir.

# Prezidentin anons etdiyi "Əsrlərin müqaviləsi" nə vəd edir?

## Vüqar Bayramov: "Bu, nəinki Azərbaycan, bütövlükdə region üçün strateji bir layihədir..."

**"Biz "Azəri-Çırağı" "Əsrin müqaviləsi" adlandırmışdıq, indi isə mən əsrlərin müqaviləsindən danışıram". Bunu prezident İlham Əliyev "Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin - yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin Bibiheybətdəki Azfen tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki "Şahdəniz" müqavilə sahəsinə yola salma mərasimindəki çıxışını ingilis dilində davam etdirərkən deyib.**



**Ölkə başçısı həmin günü tarixi bir gün adlandırıb:** "Bu, həqiqətən də tarixi gündür. "Şahdəniz" müqaviləsinin imzalanmasından 21 il sonra indi biz tarixi əhəmiyyət kəsb edən günü qeyd edirik. Bu gün mən ilk növbədə strateji tərəfdaşımız, uzun illərdir Azərbaycanın yaxşı dostu olan BP-yə təşəkkürümü bildirmək istərdim. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması bizim əməkdaşlığımızın başlanğıcı oldu. Həmin vaxtdan bizimlə birgə çalışmış və çalışmaqda davam edən bir çox şirkətlər var. Sizə xatırlatmaq və məlumat vermək üçün demək istərdim ki, həmin vaxt Azərbaycan xarici neft şirkətlərindən ibarət konsorsiumla "Azəri-Çıraq-Günəşli" müqaviləsini imzaladı və BP, sadəcə olaraq, onlardan biri idi. O, böyük hissəyə malik idi və böyük tərəfdaşlıq var idi ki, bu gün də müəyyən dəyişikliklə davam edir".

**Prezident bildirib ki, BP ilə xüsusi münasibətlər o vaxtdan həmin şirkətin Azərbaycanın qlobal enerji bazarında fəal oyunçu olması faktına əsaslanır:** "Cənab Counzun qeyd etdiyi kimi, BP-nin fəaliyyət sferasında Azərbaycan bir nömrəli investisiya məkanıdır. Bu isə bizim əməkdaşlığımızı daha da gücləndirir. Qeyd etdiyim kimi, hazırda onlar "Azəri-Çıraq-Günəşli" müqaviləsinin genişləndirilməsi üzərində işləyirlər. Ümidvaram ki, bu, tezliklə olacaq. Bundan əlavə, təkcə "Azəri-Çıraq-Günəşli"də bizim tərəfdaşlığımız 2050-ci ilədək davam edəcək. Əminəm ki, "Şahdəniz"dən nəzərdə tutulandan daha çox qaz istehsal ediləcək. Biz "Azəri-Çırağı" "Əsrin müqaviləsi" adlandırmışdıq, indi isə mən əsrlərin müqaviləsindən danışıram".

**Ölkə başçısının çıxışını dəyərləndirən iqtisadçı ekspert Vüqar Bayramov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu, nəinki Azərbaycan, bütövlükdə region üçün strateji bir layihədir:** ""Şahdəniz 2" yatağında hasil ediləcək mavi qaz Türkiyə və Avropa bazarına nəql ediləcək. Nəticədə təxminən 3 il sonra Azərbaycanın mavi qaz hasilatı 29 milyard kubmetrdən 45 milyard kubmetrə qədər yüksələcək. Bu da təbii ki, qaz hasilatında kifayət qədər böyük rəqəmlərlə ifadə ediləcək artım deməkdir. Əslində "Şahdəniz 2" yatağı ilə yanaşı, "Abşeron" yatağı da Azərbaycanın mavi qaz yatağı olaraq kifayət qədər böyük bir yataqdır. "Abşeron" yatağı da 2024-cü ildən başlayaraq Azərbaycana qaz ixracatından gəlirin daxil olmasına imkan verəcək. Bütövlükdə ilkin qiymətləndirmələrə görə, "Şahdəniz 2" yatağının istismarından Azərbaycanın əldə edəcəyi gəlir 100 milyard dollardan artıq olacaq. Söhbət Şahdəniz 2" yatağından və Cənub Qaz Dəhlizindən istifadə edildiyi müddətdən gedir. Çünki birinci mərhələdə, yəni 2018-ci ildən başlayaraq Azərbaycan Türkiyəyə nəql etdiyi mavi qazın həcmini təqribən 8,6 milyard kubmetr artıracaq. Bu həcmdə Türkiyə bazarına əlavə mavi qaz veriləcək. 2020-ci ildə isə Avropa bazarına birinci mərhələdə 10 milyard kubmetr, ikinci mərhələdə isə 20 milyard kubmetrə yaxın mavi qazın nəql edilməsi nəzərdə tutulub. Daha sonra Baltik ölkələri və İtaliyaya mavi qazın nəql edilməsi də nəzərdə tutulub. Çünki Azərbaycan mavi qazının son dayanacağı İtaliya olacaq".

**V.Bayramov qeyd etdi ki, bunlar çox strateji layihələrdir və Avropanın enerji təhlükəsizliyinin formalaşmasında rolu böyükdür:** "Azərbaycan üçün də ixrac baxımından çox əhəmiyyətlidir. Ölkəyə daxil olan vəsaitlərin həcminin artmasına gətirib çıxara bilər. Mavi qazın neftdən fərqli ondan ibarətdir ki, bu məhsul hazırda daha çox strateji əhəmiyyətə malikdir. Çünki Avropa və digər bəzi regionlar üçün mavi qazın idxalı ilə bağlı alternativ mənbələrin tapılması çox önəmlidir. Bu kontekstdən baxanda mavi qaz neftlə müqayisədə daha strateji məhsuldur. Təbii qazın nəqlinin Avropa üçün nə dərəcədə əhəmiyyət kəsb etdiyini və Azərbaycana nə qədər gəlir gətirəcəyini nəzərə alsaq, deyə bilərik ki, çox önəmli və strateji layihədir. Bu, həm də mərhələli şəkildə ölkəyə daxil olan vəsaitlərin həcminin artmasına gətirib çıxaracaq".

**Prezidentin səsləndirdiyi "Əsrlərin müqaviləsi" ifadəsini şərh edən iqtisadçı ekspert vurğuladı ki, potensial qaz yataqlarından da istifadə edilərsə, Avropa və Türkiyəyə daha uzun müddətə qaz ixracı mümkün olacaq:** "Cənub Qaz Dəhlizi ilə bağlı ilkin danışıqlar, razılaşmalar 2013-cü ildə başlasa da, "Şahdəniz" layihəsinə xeyli əvvəl başlanılmışdı. Bu baxımdan, hesab edirəm ki, stratejilik baxımından layihəni əsrlərin müqaviləsi adlandırmaq olar. Çünki gəlirlilik baxımından daha çox digər mavi qaz yataqlarından çıxarılan qazın həcmi önəmli olacaq. Sözsüz ki, əgər kəşf edilmiş və potensial mavi qaz ehtiyatlarından istifadə ediləcəksə, o zaman Avropaya və eləcə də Türkiyəyə daha uzunmüddətli dövrdə mavi qazın çıxarılması mümkün olacaq".

❑ Nərgiz LİFTİYEVA

# Əlil 31 ildir növbəsində olduğu evi ala bilmir

## İcra hakimiyyətindən isə araşdırma aparıldığını deyirlər...

**Şabran rayon sakini, 60 yaşlı II qrup əlil Elxan Bəhrayıl oğlu Şeydayev yenidən redaksiyamıza gələrək şikayətlənib. Bu dəfə şikayətçi güzəştli mənzil ala bilməməsindən gileylənib:**



"31 ilə yaxındır ki, Şabran şəhərində güzəştli mənzil növbəsindəyəm. 1993-cü ildə mənzil növbəsində 5-ci şəxs olduğum halda, 2013-cü ildə 168-ci adam olmuşam. Hazırda bununla bağlı Sumqayıt İnzibati- İqtisadi Məhkəməsinə müraciət etmişəm. 13 aprel və 12 may tarixlərində məhkəməyə baxış olub. Lakin məhkəmədə qarşı tərəf iştirak etmədi".

**Şikayətçi maddi durumunun yaxşı olmadığını da deyib:** "1990-cı ildə səhhətim və maddi durumum yaxşı olmadığından ailəmlə birgə Bakıya köçmüşəm. Ailəliyəm, 3 övladım və nəvəm var. Oğlumun 28 yaşı var, subaydır və imkansızlıqdan Xarkovda, əmisinin yanında yaşayır. 2 məktəbdə müəllim işləməyimə baxmayaraq, hər ay kredit və qızımın təhsil haqqını ödəyirəm. 16 il ev növbəsi gözlədikdən sonra Xətai rayonunda 3750 dollara sənədsiz bir otaqlı həyət evi almışam. Çox çətinliklə də olsa evi bir qədər təmir etdirmişəm. Lakin hələ də yağış, qar yağanda biz əziyyət çəkirik, evin tavanından su içəri tökülür. Bir neçə dəfə aidiyyəti orqanlara müraciət etmişəm, gəlib yaşadığım evlə maraqlanıblar, köməklik olacağını desələr də nəticə yoxdur. Bunun üçün də aidiyyəti orqanlardan xahiş edirəm ki, bu məsələdə mənə köməklik göstərilsin".

Məsələ ilə bağlı Şabran Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq. Oradan bildirildi ki, şikayətlə bağlı araşdırma aparıb, yaxın zamanda cavab veriləcək.

❑ Xalidə GƏRAY

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017



# Daha bir müharibə xəbərdarlığı - düşmən kimə arxayındır?

Qarabağ danışıqlarına olan ümidlər sıfırlanır - kritik durum; amerikalı sabiq diplomata görə, sülh prosesini yalnız ABŞ və Rusiya prezidentləri xilas edə bilər; **hərbi ekspert:** "Ermənistan ən amansız şəkildə cəzalandırılacağı haqda xəbərdar edilib..."

**Qarabağ danışıqlarında durğunluğun davam etdiyi hər gün müharibə riskini artırır. Təəssüf ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin bu ay regiona nəzərdə tutulan növbəti səfəri ilə bağlı da nikbinlikdən daha çox, skeptik gözləntilər var. Sözsüz ki, vasitəçilər ilk növbədə yeni hərbi qarşıdurmanın əngəllənməsi, yəni sadəcə olaraq, atəşkəs rejiminin uzadılması üçün səylər göstərəcək, bundan ötrü Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının prezidentlər səviyyəsində bərpasına çalışacaqlar.**

Ancaq nəticə olacaqmı? Ən önəmlisi də budur. Hələliksə siyasi və hərbi ekspertlər tərəfindən Qarabağ münaqişəsi zonasında yeni hərbi toqquşmalarla bağlı xəbərdarlıqlar gəlməkdə davam edir. Növbəti belə bir SOS siqnalını Beynəlxalq Böhran Qrupu (BBQ) verib.

*****

**"2016-cı ilin aprelində Dağlıq Qarabağda vəziyyət gərginləşəndən sonra Azərbaycan və Ermənistan 1994-cü ildə imzalanmış atəşkəs müqaviləsindən bəri müharibəyə ən yaxın vəziyyətdədir". Bu barədə qurumun sonuncu hesabatında deyilir (APA). Bildirilir ki, aprel müharibəsinə səbəb olan siyasi və təhlükəsizliklə bağlı vəziyyət indi daha ağırdır.**

"May ayında təmas xəttində vəziyyət kifayət qədər gərginləşib. Nizamlama prosesi dayanıb, hər iki tərəf qarşıdurmaya hazırdır. Bu gərginlik çoxsaylı dinc əhalinin ölümünə gətirib çıxara biləcək genişmiqyaslı müharibəyə və regional güclərin məsələyə müdaxiləsinə gətirib çıxara bilər. Rusiya, Fransa və ABŞ fikir ayrılıqlarına son qoyaraq, tərəflərə konkret güclü təzyiq göstərməli və zorakılığın yenidən baş qaldırması riskinin qarşısını almalıdır", - hesabatda deyilir.

BBQ daha sonra bildirir ki, Ermənistan və Azərbaycan liderləri bir-birinə inanmırlar. "Onların, habelə hökumət rəsmiləri və ya hərbi vəzifəlilər arasında kommunikasiya mövcud deyil. Nəticədə durğunluq baş verib ki, bu da vəziyyətin hər an nəzarətdən çıxa biləcəyi deməkdir. Həmçinin hər iki cəmiyyətdə belə bir fikir formalaşıb ki, yeni müharibə qaçılmazdır və hətta müharibə bahasına olsa belə, Dağlıq Qarabağ münaqişəsi həll olunmalıdır", - sənəd müəllifləri vurğulayır.

**Hesabata əsasən, Rusiya ən çox təsirə malik xarici oyunçu olsa da, onun bu məsələdə iştirakı qəlizdir və Kreml münaqişənin həllindən çox regionda öz maraqlarını genişləndirməyə çalışır. Böhran Qrupuna görə, güclənməkdə olan qarşıdurma fonunda vasitəçilərin başlıca vəzifəsi Ermənistan və Azərbaycan liderləri arasında mütəmadi təmasları təmin etmək, İrəvan və Bakını mövqelərini yumşaltmağa və onları savaş ritorikasından çəkindirməyə məcbur etmək olmalıdır:** "Onlar hər iki ölkəni məcbur etməlidir ki, etimad və təhlükəsizliyi bərpa etmək üçün təcili tədbirlər barədə razılığa gəlsinlər. Bura həmçinin ATƏT-in monitorinqini həyata keçirən şəxslərin sayının artırılması, ATƏT rəhbərliyi ilə araşdırma mexanizmlərini işə salınması və ərazilərdə vəzifəli hərbçilər arasında mütəmadi təmasların yaradılması daxildir. Paralel olaraq tərəflər həll olunmamış məsələlərlə bağlı substantiv, o cümlədən Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılması, Dağlıq Qarabağın statusu, beynəlxalq təhlükəsizlik təminatı və məcburi köçkünlərin qaytarılması məsələləri ilə bağlı danışıqlar aparmalıdır".

*****

Göründüyü kimi, BBQ-nin təhlili ilk baxışda obyektiv mahiyyət daşısa da, hesabatdakı heç də bütün müddəalarla razılaşmaq mümkün deyil. Məsələn, sənəddə işğala məruz qalan tərəflə - Azərbaycanla işğalçı Ermənistan arasında sanki bərabərlik işarəsi qoyulur, bu günədək anlaşmanın əldə edilməməsində İrəvanla eyni ölçüdə Bakı da suçlu kimi təqdim olunur. Bu isə ən azından BMT TŞ-nin Dağlıq Qarabağa dair 4 məlum qətnaməsinin mahiyyəti ilə ziddiyyət təşkil edir.

İkincisi, təmas xəttində faktaraşdırıcı mexanizmin tətbiqi də müstəsna olaraq, Ermənistanın maraqlarına xidmət edir. Çünki işğalçı tərəf bununla özünə qarşı Azərbaycanın hərbi xarakterli cavab (cəza) tədbirlərindən sığortalanmış olacaq. Nəticədə Azərbaycan sarıdan heç bir təzyiq gözləməyən düşmən ölkə daha radikal mövqeyə köklənəcək. Bakı təbii ki, status-kvonu ermənilərin xeyrinə möhkəmlədək və onu daha da arxayınlaşdıracaq belə bir mexanizmin tətbiqinə razı ola bilməz. Həmin mexanizmlər yalnız problemin həllində real dönüş olacağı təqdirdə mümkündür.

Bəs real dönüş nə vaxt mümkün olacaq? Siyasi təhlilçilərin bu yöndə fikir və təklifləri müxtəlifdir.

**"Dağlıq Qarabağ münaqişəsində irəliləyiş əldə etmək üçün daha yüksək səviyyədə - Minsk Qrupunun həmsədri olan ölkələrin xarici işlər nazirləri və prezidentlərinin iştirakı ilə danışıqlar aparılması lazımdır".** Bunu Minsk Qrupunun keçmiş həmsədri, ABŞ-ın ölkəmizdəki keçmiş səfiri Metyu Brayza deyib (Report). Onun sözlərinə görə, ABŞ və Rusiya prezidentləri nizamlama prosesində həlledici rol oynaya bilər.




**M.Brayza danışıqlar prosesinin çərçivəsini və bu çərçivənin Madrid sənədi olduğunu, lakin prosesin sonradan irəliləmədiyini xatırladıb:** "Xarici oyunçular bir yerə toplaşıb tərəfləri qəti barışığa çağıracaq və bu zamana qədər əldə olunan nizamlama çərçivəsində prosesin həllini tələb edəcək üçüncü ölkələrin liderlərinin iştirakı vacibdir".

**Minsk Qrupunun həmsədr ölkələrinin tərkibini şərh edən M.Brayza ABŞ və Rusiyanın həmsədr ölkələr kimi lazımlı olduğunu qeyd edib. O, eyni zamanda Minsk Qrupunun üçüncü həmsədrinin Avropa Birliyi (AB) ola biləcəyini vurğulayıb:** "Ayrı-ayrı ölkələr olmaqdansa, AB-nin olması daha yaxşı olardı. AB güclü qüvvədir, bu, beynəlxalq siyasətdə bir qrupdur, odur ki, məncə, belə addım məna kəsb edərdi".

*****

Sabiq amerikalı diplomatın sözlərində əslində həqiqət yükü az deyil. Gerçəkdən də Rusiya və ABŞ prezidentləri gündən-günə şansı azalan sülh prosesini xilas edə bilər - təbii ki, buna onların istək və marağı olarsa. Təəssüf ki, bu, müşahidə olunmur, Qarabağ məsələsi hələ ki bu iki vasitəçi super-dövlətin gündəliyində yoxdur. Varsa belə, ön sıralarda deyil.

Digər yandan, hazırda daha çox Yaxın Şərq (Suriya) böhranına cəlb olunan Vaşinqton və Moskva arasında siyasi münasibətlər Donald Trampın prezident seçilməsi ilə daha qeyri-müəyyən, lap dəqiqi, gərgin dövrünü yaşayır. Belə vəziyyətdə Azərbaycanın əsas vəzifəsi ayıq-sayıq olmaq, özünün hərbi qüdrətini və döyüş qabiliyyətini yüksək səviyyədə saxlamaq və işğalçını mütəmadi canlı və texniki itkilərə məruz qoymaqdır. Yəni düşmən heç vaxt özünü torpaqlarımızda rahat hiss etməməli, hər an güclü hərbi zərbə alacağını gözləməlidir.

**Hərbi ekspert Üzeyir Cəfərov da bu fikirdədir.**

**"Azərbaycan əsgəri ermənilərin özbaşınalığına dözmək fikrində deyil və ordumuz düşmənin bütün mövqelərini darmadağın etmək üçün tam hazır vəziyyətdədir". Bu sözləri o, axar.az-a açıqlamasında deyib. Ekspert iki gün öncə cəbhə xəttində ermənilərin atəşkəsi daha çox pozduğu istiqamətdə olduğunu, əsgər və zabitlərlə görüşdüyünü qeyd edib.**

"Ermənilər, sadəcə, ağıllarını itiriblər. Hazırkı vəziyyət onu diktə edir ki, düşmən ordumuzun malik olduğu o texnika, silah və dəyanətin qarşısında çoxdan ağlını başına yığmalıydı. Azərbaycan Müdafiə Nazirliyi dəfələrlə düşməni ən amansız şəkildə cəzalandırılacağı ilə bağlı xəbərdar edib. Bu cəzalandırma prosesi Xocavənd-Füzuli istiqamətində düşmənin müşahidə məntəqəsinin sıradan çıxarılmasında bir daha özünü göstərdi. O cümlədən əsgərlərimiz düşmənin çox ciddi avadanlıq saydığı kəşfiyyat-müşahidə qurğusunu ustalıqla ələ keçirməyə müvəffəq olublar. Baxın, erməni ordusu nə qədər bərbad bir durumdadır ki, istifadə etdikləri üsullar da onların adına layiqdir", - deyə o qeyd edib.

**Hərbi ekspert əlavə edib ki, ermənilərin son vaxtlar bu cür fəallaşması həm də Minsk Qrupu həmsədrlərinin regiona səfərləri ilə əlaqədardır:** "Ancaq heç nə alınmayacaq və Azərbaycan Silahlı Qüvvələri düşmənin bütün təxribatlarını layiqincə cavablandıracaq".

Azərbaycan Respublìkasının Prezìdentì yanında Kütləvì İnformasìya Vasìtələrìnìn İnkìşafına Dövlət Dəstəyì Fondunun malìyyəsì əsasında. Səhìfənì hazırladı: Sìyasət şöbəsì

# Trampın Avropaya qəzəbinin pərdəarxası

**ABŞ prezidenti Donald Trampda dövlət başçısı olduğu 5 ay ərzində Avropa qəzəbinin olduğu müşahidə edilməkdədir. Bunu Ağ Ev sahibinin Avropa dövlətləri ilə bağlı qərarlarında və Avropa ölkələrinin rəhbərləri haqqında fikirlərindən sezmək çətin deyil. Sanki Tramp ABŞ-ı Avropadan qoparmaq istəyir.**

## Elxan Şahinoğlu: "Amerikadan "sağmal inək" kimi istifadə etmək istəyirlər, Tramp isə biznesmendir, ölkəsinin gəlirlərini düşünür"



Son olaraq Tramp ABŞ-ın Paris İqlim Müqaviləsindən çıxdığını elan edib. O, müqavilənin ABŞ üçün avantajının olmadığını, digər ölkələrə ABŞ-la müqayisədə iqtisadi üstünlük verildiyini bildirib. D.Tramp ABŞ-ın yeni, daha ədalətli bir müqavilə axtarışında olacağını deyib. Dünya dövlətlərinin tam əksəriyyətinin sazişdə iştirak etməsinə baxmayaraq, Trampın 40 dəqiqəlik çıxışında Çin və Hindistan kimi ölkələrin bu sazişdə iştirak etmədiklərinə eyham vurması, onun Avropaya açdığı savaş kimi qələmə verilir. Hətta iş o yerə qədər çatıb ki, Fransa, Almaniya və İtaliya kimi güclü Avropa dövlətlərinin liderləri müqavilənin yenidən baxılmasını rədd edən birgə bəyanat yayıblar. Bu isə ABŞ-a qarşı yeni cəbhənin açılması anlamına gəlir. Ekspertlər prosesin bu şəkildə davamının ABŞ-ı fəlakətə sürüklədiyini qeyd edirlər.

**Politoloq Elxan Şahinoğlu Trampın Avropa qəzəbinin səbəbini belə izah etdi:** "Ağ Ev sahibi Avropaya ona görə qəzəblidir ki, Amerika İkinci Dünya müharibəsinin bitməsindən bu yana uzun onilliklərdir Avropanın təhlükəsizliyinə cavabdeh olduğu və buna milyardlarla dollar xərclədiyi halda köhnə qitə Amerikanın maraqlarını nəzərə almaq istəmir. Ona görə də Tramp deyir ki, indi ki belə oldu, ya təhlükəsizliyinizə görə NATO-ya maliyyə vəsaitini artırın, ya da öz təhlükəsizliyinə özünüz cavabdeh olun. Bu yanaşma ən çox Almaniyanı narahat edir. Təsadüfi deyil ki, Almaniya kansleri Angela Merkel bugünlərdə açıq etiraf edib ki, Amerika ilə yolları ayrıla bilər. Eyni gündə Almaniyanın xarici işlər naziri də oxşar açıqlama verdi. Onlar bu açıqlamaları ona görə verirlər ki, müdafiəyə və təhlükəsizliyə çox pul xərcləmək istəmirlər, əvvəlki illərdə olduğu kimi Amerikadan "sağmal inək" kimi istifadə etmək istəyirlər. Tramp isə biznesmendir, ölkəsinin gəlirlərini düşünür. İkinci Dünya müharibəsindən bu yana Almaniya Amerikanın müdafiəsi altında olub, Almaniya Federativ Respublikasını SSRİ-nin təhdidlərindən məhz Amerika qoruyurdu. İndi isə Almaniya rəsmilərinin sözlərindən belə çıxır ki, daha Amerikaya ehtiyacları yoxdur. Bu cür münasibətlər Amerikanın Avropaya marağını azaldacaq. Donald Tramp hesab edir ki, İqlimə dair Paris sazişi Amerikanın maraqlarına cavab vermir. Halbuki müstəqil, ekspertlərin sözlərinə görə Amerikanın sazişdən imtina etməsi gələcək illərdə Amerikanın özünə zərər verəcək. Ancaq əksini düşünənlər də az deyil. Əksini düşünənlər hesab edirlər ki, Amerikanın bu sazişdən çıxması Amerikanın iqtisadi imkanlarını məhdudlaşdıran əngəlləri ortadan qaldıracaq. Bu yanaşmalardan hansının doğru olduğunu zaman göstərəcək. Trampın bu addımı da Amerikanı Avropadan uzaqlaşdırır. Çünki Avropa İttifaqı Trampın bu addımını kəskin tənqid edib. Tramp əsatirləri dağıdır. İqlim sazişinə keçmiş prezident Barak Obama imza atmışdı. Üstündən bir neçə il keçdikdən sonra Amerika bəh-bəhlə imzaladığı sazişdən imtina edir. Bu, Amerikanın xarici siyasətində qeyri-müəyyənlik yaradır. Doğrudur, Tramp deyib ki, Amerika biznesi, fəhlələri və vergi ödəyiciləri üçün ədalətli şərtlərə əsaslanan bu və ya digər sazişə qoşulmağa dair danışıqlara yenidən başlayacaq. Ancaq kim zəmanət verir ki, Avropa Amerikanın yeni şərtlərini qəbul edəcək".

**Politoloq məlum gedişatın xoş heç nə vəd etmədiyi qənaətindədir:** "Bu gedişat Amerika-Avropa münasibətlərinə yaxşı heç nə vəd etmir. Bu NATO-nun da zəifləməsinə gətirib çıxaracaq. Digər tərəfdən, Amerika terrorçulara qarşı mübarizədə Avropadakı müttəfiqlərini itirmək təhlükəsi ilə üzləşə bilər. Hazırkı vəziyyətdən Amerika-Avropa ticarət münasibətləri də zərər görəcək. D.Trampın siyasəti birqütblü dünyanın sonunu yaxınlaşdırır. Amerika artıq bütün dünyanın yükünü üzərində daşımaq istəmir. Bu yük ona ağır gəlir. Amerika bu yükü Avropa ilə bölüşmək istəsə də, Avropa heç bir yükün altına girmək istəmir. Bu vəziyyətdən isə Rusiya və Çin kimi ölkələr istifadə etməyə çalışacaqlar. Bunun bəşəriyyət üçün daha böyük problemlərə yol açacağını zənn edirəm. Amerikanın xarici və təhlükəsizlik siyasətini tənqid etsək də, Vaşinqtonun müəyyən oyun qaydaları var ki, beynəlxalq aləm ona öyrəşib. Rusiyanın oyun qaydaları isə bəllidir: Gürcüstanı və Ukraynanı parçaladı, işğalçı Ermənistana hər cür dəstəyini davam etdirir və s. Bu, dünya üçün daha böyük təhlükələr vəd edir".

❑ **Cavanşir ABBASLI**

# Rusiya pomidor məsələsini siyasi təzyiq vasitəsinə çevirib

## "Kremldən Ankaraya təklif olunur ki, onlar bəzi məsələlərdə güzəştə getsinlər, əvəzində isə pomidor ixracatının və turizm məsələsində olan maneələrin aradan qaldırılmasına nail olsunlar"

**"Türkiyədən pomidor idxalı ilə bağlı qadağanın müddəti ən azı üç il uzadılacaq". Bunu Rusiyanın kənd təsərrüfatı naziri Aleksandr Tkaçev deyib. Nazir Rusiyanın pomidor idxalını təqribən iki dəfə azaltdığını bildirib: "Ölkəmizdə 800 min ton pomidor istehsal edirik. İstehsal həcmini təqribən daha yarım milyon ton artırmalıyıq. İdxalla bağlı qadağa hələ 3-5 il qüvvədə qalacaq. Buna görə də Türkiyədən pomidor alışından söhbət gedə bilməz".**



Qeyd edək ki, pomidor idxalı məsələsi artıq Türkiyə ilə Rusiya arasında ən mühüm mövzulardan birinə çevrilib. Türkiyənin bəzi kənd təsərrüfatı məhsulları Rusiya bazarına çıxa bilmir. Özəlliklə də pomidor. Bununla bağlı danışan Rusiya prezidenti Vladimir Putin də dəfələrlə açıqlama verib və bildirib ki, Türkiyə ilə münasibətlər gərginləşəndə Rusiya özü pomidor istehsalına başlayıb. Daxili bazarı qorumaq üçün isə Türkiyə pomidorunun idxalının qadağan olunmasını əsas şərt kimi irəli sürüb. Çünki ucuz və keyfiyyətli Türkiyə pomidoru Rusiya bazarına daxil olarsa, yerli pomidoru sıxışdırıb bazardan çıxara bilər. Nəticədə daxili istehsal hökumətin arzuladığı səviyyəyə çata bilməz.

Təxminən 10 gün öncə Rusiyanın baş naziri Dmitri Medvedyev də açıqlama verərək bildirmişdi ki, Türkiyədən Rusiyaya pomidor idxalı ilə bağlı qadağa qüvvədə qalacaq.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 25 ilinin tamam olması ilə bağlı İstanbulda keçirilən tədbirdə iştirak edən Medvedyev pomidor idxalı ilə bağlı qadağanın qüvvədə qalacağını bildirməklə yanaşı, Rusiyada fəaliyyət göstərən Türkiyə vətəndaşları ilə bağlı sanksiyaların arada qaldırılacağını qeyd edib.

Qeyd edək ki, Türkiyənin Rusiyaya pomidor ixracından gələn illik gəliri 300 milyon dollardır. Münasibətləri gərginləşdirən digər bir məqam isə Türkiyənin Rusiyadan taxıl idxalını dayandırmasıdır.

**İqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a danışarkən Rusiyanın pomidor məsələsindən Türkiyəyə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə etdiyini bildirdi:** "Türkiyə və Rusiya arasında ciddi müzakirələr gedir və bu müzakirələrin görünməyən tərəfləri də var. Kənd təsərrüfatı məhsullarının, o cümlədən pomidorun Rusiya bazarına çıxış imkanları Putin üçün Türkiyəyə təzyiq vasitələrindən biridir. Türkiyə ilə Rusiya arasındakı münaqişənin başlamasından və qadağanın tətbiqindən öncə Rusiya bazarının təxminən 40 faizə yaxını Türkiyə pomidorları hesabına təmin olunurdu. Türkiyənin istehsalçıları üçün bu, minlərlə iş yeri demək idi. Bunu Rusiya tərəfi də yaxşı anlayır. Türkiyə tərəfinin bu mövzuya həssas yanaşdığını, fermerlər tərəfindən məsələnin həlli ilə bağlı ciddi təzyiqlərin olduğunu nəzərə alan Rusiya bu məsələni ciddi təzyiq vasitəsinə çevirib. Son zamanlar Rusiya Türkiyə pomidorunun əvəzinə digər ölkələrdən, hətta Ekvadordan pomidor ixracatına başlayıb. Bu da danışıqlar prosesində ciddi təzyiq vasitəsidir".

**Ekspert Rusiyanın bu yolla Türkiyəni bəzi məsələlərə razı salmağa çalışdığını qeyd etdi:** "Hazırda Rusiya ilə Türkiyə arasında silahların alınması, Suriya məsələsi ilə bağlı danışıqlar gedir. Hətta Türkiyənin NATO ölkəsi olmasına baxmayaraq, Rusiya onlara silah satmağı düşünür. Bu da bilərəkdən edilmiş bir addımdır ki, NATO dövlətləri arasında onsuz da gərgin olan vəziyyəti bir qədər də gərginləşdirsin. Hətta ötən gün Rusiya prezidenti Türkiyəyə yeni hava hücumundan müdafiə sistemini sata biləcəklərini açıq şəkildə bəyan etdi. Ola bilər ki, bu da təzyiqlərin bir formasıdır. Türkiyə tərəfinə təklif olunur ki, bəzi məsələlərdə güzəştə getsinlər, onun əvəzində isə pomidor ixracatının və turizm məsələsində olan maneələrin aradan qaldırılmasına nail olsunlar. Çünki hər iki istiqamət üzrə Türkiyə üçün Rusiya istehlakçıları, turistləri çox önəmlidir. Hər il Türkiyədən Rusiyaya təqribən 4 milyard dollara yaxın kənd təsərrüfatı məhsulları ixrac olunur ki, bunun da böyük əksəriyyətini pomidor təşkil edir. Böhrandan öncə isə hər il Rusiyadan Türkiyəyə 4-5 milyon nəfər turist gəlirdi ki, bu da turizm sektorunda təxminən 10 milyard dollara yaxın əlavə dövriyyə yaradırdı".

**Natiq Cəfərlinin sözlərinə görə, Türkiyənin əlində Rusiyaya qarşı istifadə edə biləcəyi pomidor məsələsinə bərabər hər hansı ciddi arqument yoxdur:** "Rusiya Türkiyəyə təzyiq etməyə çalışır və istədiyini əldə etməyənə qədər güzəştə getməyəcək. Türkiyə tərəfinin əlində o qədər də ciddi arqumentlər yoxdur ki, Rusiyaya qarşı addım atsın. Çünki Türkiyənin istehsalının başqa bazarlara çıxış imkanları məhduddur. Digər bazarlarda onsuz da Türkiyənin maksimal dərəcədə iştirakı təmin olunub. Rusiya bazarı isə boş idi və burada Türkiyə istehsalçılarının və fermerlərinin böyük üstünlüyü vardı. Bu səbəbdən Rusiya gələcəkdə də təzyiqlərini davam etdirəcək".

**Azərbaycanla Rusiya arasında pomidor məsələsinə gəlincə, iqtisadçı bildirdi ki, Rusiya ölkəmizə qarşı da dəfələrlə sərt addımlar atıb, məhsulları gömrükdə saxlayıb:** "Rusiya Azərbaycandan gələn pomidorları Türkiyə istehsalı olması şübhəsi ilə dəfələrlə saxlayıb. Bunu onunla izah edirdilər ki, Türkiyə fermerləri sanksiyaları keçmək üçün həmin pomidorları Azərbaycan üzərindən Rusiyaya ixrac edirlər. Bu maneələr davamlı ola bilər ki, sözügedən məhsullar Azərbaycanda ucuz olsun".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 118 (6732) 3 iyun 2017

# Facebookun yıxdığı evlər

## Dünyanın dörd bir yanından "Facebook zədə" hekayələri və onların acı nəticələri...

**Son zamanlar dünyada da bir presedent yaranıb: sosial şəbəkədə yazdığı statusa görə həbs olunanlar, o statusu layk etməyə görə icbari cəza alanlar... Sanki facebook bir növ insanların başı üstündən asılan "Domokl qılıncı" kimidir. İnsanlar fikir bildirmədən, nəsə paylaşmadan öncə yüz ölçüb, bir biçməlidir.**




Psixoloqlar isə hesab edir ki, bu, sosial şəbəkənin insanların həyatına ciddi müdaxiləsinin nəticəsidir. Belə ki, artıq həyat facebook üzərində qurulduğundan münasibətlər, intriqalar, bəzən siyasətdəki böyük prosesləri də sosial şəbəkə tənzimləyir. Bu isə şəxsi münasibətləri kəskin şəkildə zədələyir. Mütəxəssislərin fikrincə, bəzən deyilən çox da sərt olmayan söz, fikir sosial şəbəkədə özünü "dəyər"indən artıq göstərir.

Üzbəüz deyildiyi zaman, səs tonunun, mimikanın da müşayiəti ilə çox sərt effekt yaratmayan fikirləri sosial şəbəkədə oxuyanda insanlara toxunur. Xüsusən də bu fikri dəstəkləyənlərin varlığı tənqid hədəfinə "meydanda təklənmiş" təəssüratı yaradır. Cəmiyyət mühəndisləri hesab edir ki, bunun problem həddindən adi normaya çevrilməsi insanların tolerantlıq, dözümlülük həddinin artmasından asılıdır. Zaman keçdikcə inkişaf etmiş cəmiyyətlərdə olduğu kimi, Azərbaycanda da sosial şəbəkəyə olduğundan artıq yük, status verilməyəcək.

Amma bu da sirr deyil ki, indiyədək sosial şəbəkə, orda yazılan hansısa status, paylaşılan foto dünyanın ən inkişaf etmiş ölkələrində belə ciddi problemə səbəb olub. Onlardan bir neçəsini nəzərə çatdıraq.

Saxta pulla aldadılan 22 yaşlı cənubi karolinalı qarson Eşli Conson onu uzun saatlar boyu ayaq üstə saxlayıb, bəxşiş olaraq da saxta pul verən müştərinin və çalışdığı restoranın adını facebookda paylaşdığı üçün işdən çıxarılıb. İşdən çıxarılma səbəbi isə müştəriləri aşağılamasıdır.

Daha bir hadisə isə facebookda ictimai rəylə bağlı araşdırma hazırlayan bir məhkəmə jürisi olan qadınla bağlıdır. Qadın proses davam etdiyi zaman hansı istiqamətdə səs verəcəyini bilmədiyi üçün sosial şəbəkənin yardımından istifadə edib. Belə ki, səsvermə keçirən qadın dərhal jüri üzvlüyündən çıxarılıb.

**Facebookda öyünənlərin acı sonluğu**

2014-cü ildə ABŞ-ın Florida ştatındakı Mayami şəhərində yaşayan, "Gulliver Preparatory School"da işləyən Patrik Sney işlədiyi məktəbi məhkəməyə verib. Məhkəmə prosesi 69 yaşlı P.Sneyin qələbəsi ilə başa çatan kimi Dana facebookdakı profilində yazıb: "Anam və atam "Gulliver"ə qarşı məhkəmə prosesində qalib gəldilər. Onlardan alacağımız pulla Avropaya istirahətə yollanacağam".

Boston Kollecinin tələbəsi olan Dananın bu statusunu 1200 nəfər bəyənib. Lakin Dana Sneyin unutduğu məsələ vardı: Sney ailəsinin məktəblə əldə etdiyi razılaşmaya görə, onlardan kimsə məhkəmənin gedişatı və qərarı ilə bağlı hər hansı xəbəri kütləvi informasiya vasitələrinə verməməli, sosial şəbəkələrdə paylaşmamalı idilər. Dananın statusundan sonra "Gulliver Preparatory School" Sney ailəsini anlaşmanı pozmaqda suçlayaraq məhkəməyə müraciət edib. Məhkəmə də Patrik Sneyi 80 min dollar məbləğində cərimələyib.

20 yaşındakı mədən işçisi polis maşınından benzin oğurlayarkən çəkdirdiyi şəkli facebook vasitəsilə yayımlayınca, başı polislə dərdə girib. Polisin benzin çənindən çıxan xortumla doldurduğu bidonun başında olduqca xoşbəxt görünən Baker Kentuki adlı oğru yaxalanandan sonra bildirib ki, "hər hansı pis məqsəd"i olmayıb. Belə ki, ürəyi sıxıldığı zaman polis maşınını görüb və belə bir zarafat etmək istəyib. Amma onun bu "zarafatcıllığı" polisin xoşuna gəlməyib və onu həbs edib.

**Sosial şəbəkədəki şitliklər insanların işini itirməsinə səbəb olurmuş**

Keçirdikləri partinin səhəri günü bir dostunun bədənini qaralayan Caitlin Davis adlı qız da bu səbəbdən işini itirib. Belə ki, o, yatmış rəfiqəsinin bədəninə müxtəlif simvolları əks etdirən şəkillər çəkərək sosial şəbəkədə paylaşıb. Bu hərəkətinə görə çalışdığı şirkət onu işindən azad edib. Xəstəxanada "plankinq" (döşəməyə uzanma) aksiyası keçirən işçi heyəti bunun şəkillərini facebookda paylaşdığı üçün işini itirib.

İngiltərədə bir futbol komandasının maskotu *(komandanı simvolizə etmək üçün istifadə edilən heyvan, çizgi film xarakteri)* öz komandasının transferləri barədə sosial şəbəkədə tənqidi fikir bildirdiyi üçün işdən azad edilib.

Çalışdıqları hava yolları şirkətini ifşa edən işçi heyəti bu işdə sosial şəbəkənin xidmətindən istifadə etdikləri üçün məlum sonluq onları da haqlayıb. Belə ki, onlar "Thirteen Virgin Airlines" hava yolu şirkəti motorlarının nə qədər sıx dəyişdiyini bildirən və kabinələrin də hansı tezlikdə böcəklərin istilasına məruz qaldığını bildirmişdilər. Buna görə də status yazılan kimi şirkət rəhbərliyi onların işinə son verib.

Cənubi Karolinanın "ən avara məktəbində" çalışan müəllimə elə facebook səhifəsindəki "haqqında" bölümünə "ən avara məktəbdə müəllimlik edir" yazmışdı. Onun bu "səmimiyyəti" məktəb rəhbərliyi tərəfindən qəbul edilmədiyi üçün işdən çıxarılıb.

Bukinqam Sarayında çalışan Keyt Middletona facebook vasitəsilə ən ağır təhqirləri söyləyən Kameron Reylinin işinə son verilib.

Şagirdini facebookda dostluğa qəbul edən müəllim onun şəklinin altına "çox seksual bir poza" deyə şərh yazdığı üçün işdən azad edilib.

Facebookda əlindəki içki qədəhi ilə poza verən müəlliməyə də işdən çıxması üçün vaxt verilib. Hələ də işini geri qazanmaq üçün çalışır.

Şikəst olmadığı ortaya çıxan Nathalie Blanchard adlı qadının başı ağrıyıb. 2008-ci ildən bəri şikəstlik sığortası alan qadın yay tətili zamanı çəkdirdiyi əyləncəli və sağlam şəkillərini facebookda paylaşdığı üçün məvacibi kəsilib.

Facebookda müdirini və işini pisləyən bir alman qızın başına gələnlər də maraqlı olub. O, müdirini dost siyahısına əlavə etdiyini unutduğu üçün yazdığı statuslar da birbaşa müdirinə çatıb. Nəticədə qızcığaz da tez bir zamanda işini itirib.

Şagirdlərinə qarğış edən müəllimənin hekayəsi isə lap maraqlıdır.6-cı sinfə gedən bir şagirdin sahil gəzintisində ölməsindən sonra facebook profilində "Bu gündən etibarən sahil gəzintisinin tələbələrim üçün çox yaxşı bir gəzinti tərcihi olduğunu düşünürəm. Onlara nifrət edirəm" tipli status yazıb. Müəllimə haqda məktəb rəhbərliyi şiddətli töhmət verib və işdən azad edib.

Monastrdakı kompüterdə arxiv yaratmaq əvəzinə daha çox facebookda vaxt keçirən rahibə Maria Jesus Galanın bu hərəkəti birmənalı qarşılanmayıb. Onu dərhal Santa Domingo el Real monastrından çıxarıblar.

Tania Dickinson adlı qadın Facebook vasitəsilə Sosial İnkişaf Nazirliyindəki vəzifəsini aşağıladığı üçün işdən qovulub.

Gürcustandakı futbol komandalarından birinin texniki direktoru olan Frank Samuelson facebookdakı irqçi sözləri ucbatından vəzifəsindən qovulub.

İsveçrədə bir qadın iş yerinə zəng vuraraq, miqrendən əziyyət çəkdiyini və bir günlüyünə evdə qaranlıq bir otaqda işləyəcəyini bildirib. Amma gün ərzində onun facebookdakı hərəkətləri görüldüyü üçün işinə son verilib.

**Azərbaycanda facebook statusuna görə məhkəmə**

Azərbaycanda da sosial şəbəkə vasitəsilə paylaşdığı statusa görə cəzalandırılan, polisə çağırılan və hətta həbs olunanlar var. Amma bir çox hallarda onların həbsi rəsmi qaydada sosial şəbəkədəki statusun nəticəsi kimi göstərilmir - baxmayaraq ki, qeyri-rəsmi səbəbi FB statusu olan xeyli həbslər var.

FB-nin də səbəb olduğu bir məhkəmə işinə nəzər yetirək:

2013-cü il noyabrın 25-də Şirvan Apelyasiya Məhkəməsi Astara Məhkəməsinin facebookdakı tənqidi ifadələrə görə cinayət cəzası kəsən hökmünü ləğv edib. Yuxarı məhkəmə rayon məhkəməsinin hökmünün ciddi prosessual pozuntulara yol verilməklə çıxarıldığı qənaətinə gəlib. "Facebook işi" ilə bağlı - Astara Rayon Məhkəməsi 2013-cü ilin iyul ayında "AccessBank"ın keçmiş işçisi Mikayıl Talıbovu internetdəki ifadələrindən dolayı cinayət məsuliyyətinə cəlb edən hökm çıxarmışdı. M.Talıbov "AccessBank"dakı işindən çıxarılmasını qanunsuz sayırdı. O, facebookda "Accessbank - Haqsızbank" adlı səhifə yaradaraq bankın işini sərt ifadələrlə qamçılamışdı. Bank həmin səhifəni defamativ məzmunlu sayaraq məhkəmədən M.Talıbovun böhtana görə məsuliyyətə cəlb olunmasını tələb etmişdi. Astara Rayon Məhkəməsi facebook səhifəsindəki "Accessbank-Haqsızbank", "Azərbaycanlıların qazandığı pullarla Azərbaycana qarşı", "Accessbank siyasi gərginliyi artırır, əhalini hökumətdən narazı salır", "Bankda 50 000 manata 5 000 manat şapka alınır" və digər oxşar ifadələrin böhtan məzmunlu olduğu qənaətinə gələrək, M.Talıbovu Cinayət Məcəlləsinin böhtana görə məsuliyyət müəyyən edən bədnam 147.1 maddəsi ilə təqsirli bilmişdi. M.Talıbov aylıq qazancının 20%-nin dövlətə alınmaqla, 1 il müddətinə islah işləri cəzasına məhkum edilmiş, habelə M.Talıbovun üzərinə facebookda təkzib vermək vəzifəsi (!) qoyulmuşdu.

Mikayıl Talıbovun hüquqlarını Media Hüququ İnstitutunun vəkilləri müdafiə edirlər. MHİ-nin vəkilləri Şirvan Apelyasiya Məhkəməsinə təqdim etdikləri şikayətdə Astara Məhkəməsinin hökmünün qanunsuz olduğunu, maddi və prosessual pozuntulara yol verilməklə çıxarıldığını, M.Talıbovun ifadə azadlığı və ədalətli məhkəmə araşdırması hüququnu pozduğunu qeyd etmişdilər. Məhkəmədən rayon məhkəməsinin hökmünün ləğvi tələb olunurdu. Apelyasiya şikayətinə noyabrın 25-də Şirvan Apelyasiya Məhkəməsinin hakimi Ələsgər Novruzovun sədrliyi ilə baxılıb. Məhkəmə hesab edib ki, rayon məhkəməsinin hökmü ciddi prosessual pozuntulara yol verilməklə çıxarılıb, M. Talıbovun ədalətli məhkəmə araşdırması hüququ pozulub. Şirvan Apelyasiya Məhkəməsi hökmü ləğv edərək işi yenidən baxılmaq üçün Astara məhkəməsinə qaytarıb.

Britaniya hökuməti GCHQ kəşfiyyat xidməti tərəfindən google, facebook və internet poçtu xidmətlərinin Britaniyaya aid olan hissəsinin izlənməsinin qanuni olduğunu və bunun üçün məhkəmə qərarına ehtiyacın olmadığını bildirib. Kəşfiyyat rəisi Charles Farr-ın sözlərinə görə, adıçəkilən şəbəkələrdə britaniyalıların fəaliyyəti "xarici əlaqələr" sayılır və bu səbəbdən həmin əlaqələrə və fəaliyyətə müdaxilə oluna, adıçəkilən sosial şəbəkələr müəyyən şəraitdə izlənilə bilər və "heç bir əlavə icazə alınmasına ehtiyac yoxdur".

Bu praktikanın mövcudluğu Privacy International (PI) şirkəti ilə məhkəmə çəkişməsi zamanı aşkar olunub.

PI bu qaydanı vətəndaşların hökumət tərəfindən izlənilməsi praktikasının "ört-basdır" edilməsi siyasəti kimi qiymətləndirib. ABŞ kəşfiyyatının keçmiş əməkdaşı Edward Snowden bütün dünya boyu vətəndaşların telefon danışıqlarının və internet aktivliyinin hökumətlər tərəfindən izlənməsini ifşa edəndən sonra ilk dəfədir ki, Britaniya hökuməti bu sahədə mövcud praktika və qanunvericiliyə dair şərh verib.

❑ **Sevinc TELMANQIZI**